Antologiya

# ZƏFƏR QOXUSU



**Layihə rəhbərləri:**
**Esmira Günəş,**
**Yadigar Təvəkgül**

# ZƏFƏR
## QOXUSU

**Antologiya**

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 116398

**Bakı - 2020**

84(5Aze)+63.3(5Aze)622.8
Z 46

**Redaktor: Esmira Günəş**

**Esmira Günəş, Yadigar Təvəkgül. "Zəfər qoxusu". Bakı, "Təknur" - 2020. 142 s.**

**Əziz oxucular, 27 sentyabr 2020-ci il tarixində ölkəmizdə başlayan II Qarabağ müharibəsi hər birimizə həm üzücü, həm də sevindirici anlar yaşatdı. Hər gün eşitdiyimiz şəhid xəbərləri ürəklərimizi parçalasa da, işğaldan azad olunan torpaqlarımızın sevinci təsəllimiz oldu. Ölkəmizin bu çətin anlarında hərə öz sahəsində ordumuza dəstək olmağa çalışdı. Biz ədəbiyyat adamları isə qələmimizlə Vətən sevgimizi vərəqlərə tökdük. "Zəfər qoxusu" antologiyasında sizlərin görüşünə Vətən eşqimizlə gəlmişik. Əminəm ki, digər kitablarımız kimi bu kitabımız da hər bir oxucumuzun ən çox oxuduğu masaüstü kitabına çevriləcək.**

**ISBN: 978-9952-445-05-2**

**© Esmira Günəş, 2020**

MƏCBURİ NÜSXƏ №

Respublika Uşaq KİTABXANASI
İNV № 416398



## ANAR BOLUSLU

Əliyev Anar Əli oğlu 1988-ci ildə Goranboy rayonunun Cinliboluslu kəndində anadan olub. Bir kitab müəllifidir. Şeirləri "Goranboyun Söz Dünyası", "El Ruhu", "Bitməz Olan Duyğular", "Ömrün Bir Səhifəsi", "Sevgi Damlası", "Dağlar", "Unutmadıq Şəhidim 1", "Türk Dünyası Şiir Seçkisi 3", "Türk Dünyası Şiir Seçkisi 5", "Günəşin Nuru 4" və " Hər çiçəkdən bir ləçək" kitablarında, eləcə də "Palitra", "Oxu məni", "Ədalət" və "Vətənpərvərlər" qəzetində dərc olunub.

## Düşmənə göz dağıdır

İşğalçıdan azad olan torpaqlar,
Dosta qürur, düşmənə göz dağıdır.
Qarabağda indi yanan ocaqlar,
Dosta qürur, düşmənə göz dağıdır.

Uymaginən rusa, farsa, ərəbə,
Aldanma heç bəhanəyə, səbəbə.
Qazanılan hər bir uğur, qələbə,
Dosta qürur, düşmənə göz dağıdır.

Ölkəmizin gələn hər xoş sorağı,
Haqsızlara haqlıların qınağı,
Dalğalanan Azərbaycan bayrağı,
Dosta qürur, düşmənə göz dağıdır.

## Şəhidlər

Ağır dərd olsa da övlad itkisi,
Daim yaşayacaq, ölməz şəhidlər.
Canından keçərlər Vətən yolunda,
Cəhənnəm əzabı bilməz şəhidlər.

Mərd oğul düşmənə baş əyməz qəti,
Qoruyar obanı, yurdu, milləti.
Şəhidə vəd verib Rəbbim cənnəti,
Parlaq nur selidir, sönməz şəhidlər.

Vaxtsız gəldi xəzan, qayıtmaz bahar,
Analar gözündən qanlı yaş axar.
Cənnət sakinidir əbədi onlar,
Bir də bu dünyaya gəlməz şəhidlər.



Doğma Vətəniyçün qalxıb ayağa,
Sadiq qaldılar üç rəngli bayrağa.
Hopdu al qanları qara torpağa,
Məqsəddən, amaldan dönməz şəhidlər.

Səbir istəmirik, qalxıb ayağa,
Bizə neylər axı, bir ovuc dığa?
Azadlıq bəxş edək ana torpağa,
Narahat ruhludu, enməz şəhidlər.

## Dilqəm

*(Erməni əsirliyində olan
Dilqəm qardaşımıza)*

Qeyrətinə qurban olum,
Əsirlikdə olan Dilqəm.
Kəlbəcərsiz, yurd-yuvasız,
"Vətən" deyib solan Dilqəm.

Duman kimi axan oldun,
Od-alovtək yaxan oldun,
Şimşək kimi çaxan oldun,
Bulud kimi dolan Dilqəm.

Harayına gəlmədik biz,
Dərd-qəmini bölmədik biz,
Axı niyə ölmədik biz?
Hər işimiz yalan, Dilqəm.

Öləziyib, yanmır soban,
Dağda tütək çalmır çoban,
Yağmalanıb elin, oban,
Talan olub, talan, Dilqəm.

Biz yatırıq düşmən oyaq,
"Hələ yerimizdə sayaq"?
Allah olsun sənə dayaq,
Qolu bağlı qalan Dilqəm,
Qolu bağlı qalan Dilqəm!

## Bayrağım

Dövlətlərin içində
Qoy görsün solum, sağım.
Dünyamız var olduqca,
Dalğalan, ey bayrağım.

Qeyrətim, vicdanımsan,
Vüqarım, qürurumsan.
Ölümə dik baxıram,
Sən gözümdə nurumsan.

Dalğalan, ey bayrağım,
Sən də ana Vətənsən.
Vətənçün candan keçən
Şəhidlərə kəfənsən.

Dalğalan, ey bayrağım,
Qələbəm, zəfərimsən.
Döyüşlərdən qaçmayan,
İgidimsən, ərimsən.

Zikr edirəm adını
Ürəyimdə, dilimdə.
Hər gün səni öpərək
Gəzdirirəm əlimdə.



Səcdəgahım, Kəbəmsən
Gözlərimin önündə.
Şəfaətim olarsan
Qiyamətin günündə.

Dalğalan, ey bayrağım,
Düşmənə göz dağısan.
Uludan da ulusan,
Tarixin xoş çağısan.

Dalğalan, ey bayrağım,
Sən də ana Vətənsən.
Vətənçün candan keçən
Şəhidlərə kəfənsən.

## Vaxtıdır

Vətən bizi çağırır,
Cavab vermək vaxtıdır.
"Oğul" deyə bağırır,
Cavab vermək vaxtıdır.

Heç kəs vurmasın tənə,
Baxmasın duman, çənə,
Layiqincə düşmənə,
Cavab vermək vaxtıdır.

Zəfər çalmaq vaxtıdır,
Qisas almaq vaxtıdır,
Dığaların canına,
Lərzə salmaq vaxtıdır.
Cavab vermək vaxtıdır.



## ASLAN TƏRTƏRLİ

Məmmədov Aslan Rza oğlu 6 sentyabr 1981-ci ildə Tərtər rayonu Cəmilli kəndində anadan olub. Şeirləri "Günəşin Nuru" 2, 3, 4 və "Sevgi damlası" antologiyalarında, "Vətənpərvərlər" qəzetində nəşr olunub. Həmçinin şeirləri bir çox saytlarda və sosial şəbəkələrdə daimi olaraq paylaşılır.



### Bir il altı ay

Qəm eyləmə nazlı yarım, səbr elə,
Gəldiyitək gedər bir il altı ay.
Bir qədər də mənsiz yaşa ömür elə,
Gəldiyitək gedər bir il altı ay.

Düşdüm uzaq, tanınmaz bir ellərə,
Adım qaldı məndən sonra dillərə,
Gün verməram əbəs yerə tellərə,
Gəldiyitək gedər bir il altı ay.

Mən əsgərəm fəxr edirəm adımla,
Fəxr edirəm məqsədim, amalımla,
Ana əli su atıbdı ardımla,
Gəldiyitək gedər bir il altı ay.

Vətən mənə oğul dedi, çağırdı,
Çoxu dedi əsgər ömrü ağırdı,
Ağır həyat mənim üçün nağıldı,
Gəldiyitək gedər bir il altı ay.

And içmişəm, öz adımdan dönmərəm,
Od tutaram, alışaram, sönmərəm,
Bu amalla doğransam da ölmərəm,
Gəldiyitək gedər bir il altı ay.

### Tərtər

Dağ qoynunda məskən salan,
Dağ vüqarlı anam Tərtər.
Düşməninə qan udduran,
Yağı qəddi qıran Tərtər.

Havan təmiz, suyun məlhəm,
Tərtər çaya qurban hər dəm,
Səndə oldum, səndə öləm,
Heç ummaram aman, Tərtər.

Murov sənin atan oldu,
Sərsəng doğma anan oldu,
Kəlbəcər yaylağın oldu,
Özü qışlaq olan Tərtər.

Atan əsir, anan əsir,
Yaylağında namərd gəzir,
O günə demişəm nəzir,
Dərsin olsun talan, Tərtər.

Qəlbim deyir, yazır əlim,
Təsvirinə yetmir dilim,
Sənsən obam, sənsən elim,
Sənə qurban olam, Tərtər.

## Sənin

*(Laçınlı bir dostuma)*

Ay eloğlum, qəm eyləmə,
Qayıdar vətənin sənin.
Halal olan itə bilməz,
Tapılar itənin sənin.

El həsrəti, oba dərdi,
Sinən üstə bir sipərdi,
Demə qismət bu qədərdi,
Bu deyil qismətin sənin.



Bu şeytanın tərs işidi,
Bu taleyin gərdişidi,
Bu karvanın gedişidi,
Dönəcək gedənin sənin.

Laçın yurdu ağlar qalıb,
Qarakeşiş saçın yolub,
Güləbirdim viran olub,
Çoxalıb sitəmin sənin.

Bu dərd ağır dərddi qağa,
Ağa olub indi dığa,
Dözmək olmur bu yamağa,
Nə çox oldu səbrin sənin.

Bəsdi susdun zaman ötür,
Qalx ayağa silah götür,
Bircə kəlmə xəbər yetir,
Qalxacaq millətin sənin.

## Biz gəlirik!

On milyonluq bir orduyla,
Vətən, gözlə biz gəlirik!
Mərd oğluyla, mərd qızıyla,
Vətən, gözlə biz gəlirik!

Dağlarında qar olmağa,
Hər daşına yar olmağa,
Yolunda qurban olmağa,
Vətən, gözlə biz gəlirik!

Nəfəs verib, qan tökməyə,
Düşməninə dağ çəkməyə,
Qoynunda güllər əkməyə,
Vətən, gözlə biz gəlirik!

Baş komandanım vur dedi,
Şanlı ordum cuşə gəldi,
Dağıldı düşmənin səddi,
Vətən, gözlə biz gəlirik!

Məğrur Türk, boz qurdu ilə,
Müstəqil bir ordu ilə,
Kərbəlanın yolu ilə,
Vətən, gözlə biz gəlirik!

Qazi də biz, şəhid də biz,
Bu tarixə şahid də biz,
Qoyub tarixdə yeni iz,
Vətən, gözlə biz gəlirik!
Vətən, gözlə biz gəlirik!

## İyirmi yanvar

İyirmi yanvar günü,
Soyuq bir qış gecəsi,
Al qanlarla yuyuldu,
Bakının hər küçəsi,

Vətənin tarixinə,
Qara sətir yazıldı.
Neçə göz ağlar qaldı,
Neçə məzar qazıldı.



Şərəfsiz, mənfur düşmən,
İşə saldı hiyləsin.
Tutdu dinc sakinlərə,
Zalım adlı gülləsin.

Həmin gecə xalqımın,
Taleyi həll olundu.
Azadlığın xəmiri,
Gözyaşıyla yoğruldu.

Şəhidlərin qanları,
Oyatdı bu milləti.
Xatırlatdı özünə,
Onda olan qüdrəti.

Yumruq oldu həmin gün,
Bir zərbəyə çevrildi.
Düşmənin qarşısında,
Sipər kimi dirəndi.

İllər keçi o ildən,
Unudulmur şəhidlər.
İndi hər bir qəhrəman,
O yolları gedirlər.

Xalqın müstəqilliyi,
Qazancıdı o gündə,
Bu gün hər kəs baş əyir,
Şəhidlərin önündə.



## BƏHRAM ŞƏMS

İbrahimov Bəhram Məhərrəm oğlu (Bəhram Şəms) 1972-ci ildə Masallı rayonunun Türkoba kəndində anadan olub. 1996-cı ildə ADNA bitirib. XDG XDND idarəsində işləyib. Şeirləri beş almanaxda dərc olunub, bir şeir kitabının müəllifidir. İkinci kitabı çapa hazırlanır. "Qızıl Qələm" media mükafatı laureatıdır.



### Qarabağ Azərbaycandır

Vətən mənim məhəbbətim,
Vətən - aranım, yaylağım,
Vətən namusum, qeyrətim,
Vətən üçrəngli bayrağım!

Vətən mənim oğlum, qızım,
Vətən mənim elim, obam.
Vətən mənim suyum, duzum,
Vətən - nəfəsim və havam.

Ehey, yağı düşmən, eşit,
Mən bu elin xan oğluyam,
Bax, Babəkəm, Cavanşirəm,
Xətaiyəm, Koroğluyam!

Yurdumu əsir etmisən,
Pozacam o növrağını,
Kəsəcəyəm nəfəsini,
Söndürüb son çırağını.

Bu gün qisas günüdür, bil,
Alacam mənfur canını,
Səngər - səngər vuruşacam,
Axıdacam al qanını.

Aşıb daşan sel kimiyəm,
Qəzəbim gəlibdir cuşa.
Gecə - gündüz hey çağırır
Məni Kəlbəcərlə Şuşa.

Neçə ildir yol gözləyir
İntizarla dağım, dərəm,
Bu gün şanlı tarix yazan
Qorxmaz, igid bir əsgərəm.

Kim vardır ki, ondan əziz ?!
Vətən ana, vətən candır,
Azərbaycan Qarabağdır,
Qarabağ - Azərbaycandır!

## Məndən soruşmayın

Məndən soruşmayın haralıyam mən,
"Haralı" sözünü almayın dilə.
"Haralı" sözüylə bölünür Vətən,
Kiçilib yox olur o belə-belə.

Hər səhər səmaya qalxanda günəş
Bu doğma torpağı qucur ürəkdən.
Günəş, "haralısan?" sözün sormadan
Şəfəqin hər yerə saçır ürəkdən.

Bəs niyə bölürük biz bu vətəni,
Doğma ola - ola yadlaşırıq biz ?!
Üz - üzə gələndə xeyirdə, şərdə,
Əlüstü, , Hardansan ? "- soruşuruq biz.

Məndən soruşmayın haralıyam mən,
Babəkin köksündə yara göynəyər,
Vahid Azərbaycan görmək istəyən
Babam Xətainin ruhu inciyər.

Vətən eşqi ilə şəhid oğullar
Döyüşüb qovuşdu əbədiyyətə.



"Haralı" sormadan, "kimsən" demədən
Yetişdi əbədi bir səadətə.

Gəl, dostum, əl-ələ tutaq yenə biz,
El-oba bir olsa dağı oynadar.
"El gücü – sel gücü" məsəlli olsaq,
Düşmənə dünyanı eyləyərik dar.

Bax onda bu vətən gülüstan olar,
Xeyir Şəri boğub yerə yıxacaq,
Bax onda azəri söz lüğətindən
"Haralı" kəlməsi yoxa çıxacaq.

## Ata yurdu

Nə vaxt idi görə bilmirdim səni,
Salam, mənim ata yurdum, necəsən ?!
Nə vaxt idi görüşünə həsrətdim,
Salam, mənim ata yurdum, necəsən ?!

Baxışında qövsi - quzey qarı var,
Həsrətimin alovu var, qoru var,
Başın üstə bir durna qatarı var,
Salam, mənim ata yurdum, necəsən?!

Sən yuvasan, mənsə qərib göyərçin,
Çox göynəyib burnum ucu səninçin,
Bilirəm, qəribsəmisən mənimçin,
Salam, mənim ata yurdum, necəsən ?!

Səndən uzaq mənə köçkün dedilər,
Sənsiz düşdü yuxularım dərbədər,
Qayıtmışam, Şuşa, Laçın, Kəlbəcər,
Salam, mənim ata yurdum, necəsən ?!



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 116.398

Gəldim sənə edəm bu canı qurban,
Səni uca tanımışam hər zaman,
Dar ayaqda öz balana arxalan,
Salam, mənim ata yurdum, necəsən ?!

## Vətən dedim

Dərəsinə vətən dedim bu torpağın,
Məni öz bağrına basıb öpdü dərə.
Zirvəsinə vətən dedim uca dağın
Səsimə səs verdi gündə neçə kərə.

Qayasına vətən dedim, şəlaləsi gülümsədi,
Qoca qartal başım üstə dövrə vurdu.
Meşəsinə vətən dedim, ağacları cilvələndi,
Belə sevdim qarış - qarış mən bu yurdu.

Yaylağına vətən dedim, aranına vətən dedim,
Ürəyimdə çiçək açdı neçə arzu, neçə istək.
Səmasına vətən dedim, torpağına vətən dedim,
Aşıb daşan bulaq kimi bu sevgidən coşdu ürək.

Çəməninə vətən dedim, ləçəyində şeh oyandı,
Yarpağında xala döndüm, dodağında təbəssümə.
Ağacına vətən dedim, budağında çiçək açdım,
İlham alıb bu sevgidən düşdüm tilsimdən tilsimə.

Qarış - qarış sevdim onu, qarış -qarış əzizlədim,
Saçlarımı oxşadıqca mavi Xəzərin küləyi.
Varlığına vətən dedim, sevgisinə vətən dedim,
Əllərimin qabarından yondum bu şair ürəyi...



## Dalğalan, uca bayrağım

Dalğalan, uca bayrağım,
Ucal zirvədən zirvəyə,
İllər idi həsrət idin
Əsən bu dəli küləyə..

Bu külək sənin nəfəsin,
Bu zirvə sənin zirvəndir,
Bu gün döyüşən hər əsgər
Sabah sənin qələbəndir.

Tir - tir əssin yağı düşmən
Baxıb ay və ulduzuna,
Qurban olsun əsgərinin
Ayaqlarının tozuna.

Haqqsan, zəfər səninlədir,
Uca, məğrur tut başını,
Qarabağdan səslə, oyat
Tarixlərin yaddaşını.

Haydı, əsgər, qələbəyə,
Düşmən düşər ayağına,
Diz çöküb səcdə qılacaq
Azərbaycan bayrağına!



## CEYHUN ŞİRVANİ

Hüseynov Ceyhun Mətləb oğlu 23 fevral 1988-ci ildə Şamaxı rayonu Laləzar kəndində anadan olub. Şeirləri "Günəşin Nuru" 1,3 və 4 antologiyalarında, "Sevgi damlası" antologiyasında, "Azad qələm" jurnalında dərc olunub. Bununla yanaşı şeirləri bir sıra saytlarda və digər mətbuat orqanlarında daimi olaraq dərc olunur. "Günəşin Nuru" ədəbi məclisinin üzvüdür.



### Vətən

Sən ey şəhidlərdən bizə yadigar,
Sən bir əmanətsən, əmanət, Vətən!
Səni bəxş etmişdir o pərvərdigar,
Göstərməm gərəkdir sədaqət, Vətən!

Sənsiz zindan olur ötən hər anım,
Səninlə döyünür sinəmdə canım,
Axsın torpağını sulasın qanım,
Mən səndən edəməm şikayət, Vətən!

Can alıb, can verir budur bazarın,
Məskəni yurdusan neçə yazarın,
Gəlsin ürəyimə dərdin-azarın,
Çox çəkdin bəs edər, kifayət, Vətən!

Könlümdən çəkilir çəkdiyim həsrət,
Canlanır gözümdə gözəl bir surət,
Bir millət, bir bayraq, bir də ki qeyrət,
Bir də sənə olan məhəbbət, Vətən!

Cəsur övladların tarix yazdılar.
Qoy yağsın mərmilər başımız üstə,
Aman istəyənə aman vermə sən!
Qoy gəlsin üstünə yağılar dəstə,
Bir addım geriyə atın sürmə sən!

Saxlama döyüşü xəyanətdi bu,
Şəhid qanlarının qisası yerdə!
Göstər ki qeyrətli bir millətdi bu,
Atəşkəs eyləmə düşmənlə bir də!

Onlar adət edib ayı yanında,
Quyruq bulayaraq diş qıcadmağı,
Qorxu olmamışdır qurdun canında,
O sevmiş başını mərd uzatmağı!

Burax Qarabağın taleyin tamam,
İzin ver bu ordu qəbrini qazsın!
Bizimdir Qarabağ bilsin hər adam!
Cəsur övladların tarixə yazsın!

## Azadlığın müjdəsi

Sən elə zirvəyə atırsan addım,
Mat qalır dünyalar cəsarətinə!
İgid oğulların ər meydanında,
Son qoyur düşmənin əsarətinə!

Otuz il zülmətə qərq olan ellər,
Nəhayət günəşin nurunu alır!
Sevinir torpağda daşda qayada,
Türk oğlu üstündə yurd-yuva salır!

Sulayır qanıyla xarı bülbülü,
Şəhid övladların sənin, ey Vətən!
Adın çəkiləndə dayanır artıq,
Heyrətlə, qürurla üstündən ötən!

Zəngilan, Fizuli, Cəbrayıl tamam,
Çatdı azadlığa müjdələr olsun!
Çox yaşa! Çox yaşa, ey Azərbaycan!
Qalan ellərdən də xoş xəbər olsun!



## Şəhidlər

Qanları mürəkkəb, özləri qələm,
Özüylə tarixi yazdı şəhidlər.
Bitsin söylədilər bu qüssə, ələm,
Düşmənə qəbirlər qazdı şəhidlər!

İlahi nə gözəl yoldu bu karvan,
Onu mənzilinə yetirir sarvan,
Bir dəfə canını etmişkən qurban,
Min dəfə dedilər azdı şəhidlər!

Çıxartdı düşmənin boşa hiyləsin,
Yerinə gətirdi haqqın cümləsin,
Azadlıq sözlərin, vətən kəlməsin,
Ən gözəl haqqıyla yozdu şəhidlər!

Düşmən cərgə-cərgə öndə dursa da,
Xəyanət edənlər bizi vursa da,
Min hiylə, min kələk plan qursa da,
Hamsını məhv edib pozdu şəhidlər!

## Azad Qarabağım

Dərdin dərmanını tapırsan özün,
Ey cəsur millətim, igid əsgərim!
Hədəfin gözünə dikilib gözün,
Dolub igidlərlə baxın səngərim!

Ey xalqım, əhsən sənə, bu gün çox əhsən!
İgid oğullarla tarix yazırsan.
Sənin hər fərdinlə fəxr edirəm mən,
Bu gün düşmən üçün qəbir qazırsan!

Sancılır bayrağım azad yurduma,
Düşmən qaça-qaça geri çəkilir.
Qırılır tikanlar neçə il sonra,
Onun əvəzinə güllər əkilir.

Sarıb ürəyimizi qürur hissləri,
Azadlıq havasın alır Qarabağ!
Artıq öz təbibin tapıb bu yara,
Sağalır astadan çəkilən bu dağ!

## Cəsur övladların tarix yazdılar

Qoy yağsın mərmilər başımız üstə,
Aman istəyənə aman vermə sən!
Qoy gəlsin üstünə yağılar dəstə,
Bir addım geriyə atın sürmə sən!

Saxlama döyüşü xəyanətdi bu,
Şəhid qanlarının qisası yerdə!
Göstər ki qeyrətli bir millətdi bu,
Atəşkəs eyləmə düşmənlə bir də!

Onlar adət edib ayı yanında,
Quyruq bulayaraq diş qıcadmağı,
Qorxu olmamışdır qurdun canında,
O sevmiş başını mərd uzatmağı!

Burax Qarabağın taleyin tamam,
İzin ver bu ordu qəbrini qazsın!
Bizimdir Qarabağ bilsin hər adam!
Cəsur övladların tarixə yazsın!





## EHTİBAR MƏXFİ

Orucov Ehtibar Asif oğlu 1 may 1990-cı ildə Ağdam rayon Mərzili kəndində anadan olub. İlk dəfə şeiri Esmira Günəşin "Sevgi sarayı" kitabında nəşr olunub. Daha sonra isə "Azad qələm" qəzetində, "Günəşin Nuru 3", "Sevgi damlası" və "Unutmadıq şəhidimi!" kitabında nəşr olunub. "Günəşin Nuru" ədəbi məclisinin fəal üzvlərindən biridir.

## Dərdimiz

İllərdi həsrətin çəkənlər bilir
Bilmirik yazılıb hara dərdimiz.
Sanki düyünlənib açılmaz idi,
Elə bil düşmüşdü tora dərdimiz.

Qalmışdıq biz həsrət dağa, daşına,
Adını həkk etdik qan yaddaşına.
Nəhayət yumruğun vurub başına,
Oyandı tilsimi qıra dərdimiz.

Bir insan bu qədər acıya dözməz,
Dözüb vətən adlı sevgidən bezməz.
Bəzi Vətən, Vətən deyənlər bilməz,
Olub qəlbimizdə yara dərdimiz.

Vətəndən ayrılıq çəkməsin heç kim,
Ağlayıb göz yaşı tökməsin heç kim,
Vətən deyib beli bükməsin heç kim,
Oxşayır borana qara dərdimiz.

Yaşasın firavan artıq bu ellər,
Xoş gündən danışsın lal olan dillər.
Xonçalar bəzəyin qızlar gəlinlər,
Yetişir sonuna qara dərdimiz.

Çəkilib millətin ərşə yuxusu,
Sübhədək yatmayır elin çoxusu,
Gelir burnumuza torpaq qoxusu,
Söz versin kamana, tara dərdimiz.



## Şəhidin

Qalx ayağa Azərbaycan bir daha,
Olubdu yurduna qurban Şəhidin.
Qalmasın yerlərdə cavabsız əsla,
Uğrunda tökdüyü bu qan Şəhidin.

Qaldır millətini ayağa indi,
Ver hücum əmrini qərar sənindi.
Bu qədər milləti artıq sevindir,
Sülh yolu istəmir bu an Şəhidin.

Daha baş əyməyək düşmənə yada,
Qoy meydan oxuyaq bizdə dünyada.
Düşmən yanımızıda balıq dəryada
Görünən tək görür inan Şəhidin.

Artıq zamanıdır verilsin əmir,
Polad qarşısında əzilsin dəmir.
İgidlər ayaqda qalıb gözləmir,
Sevinər xəbəri duyan Şəhidin.

Bitsin bu sülh yolu götür qərarı,
Ver əmri gözləmə bitir qərarı,
Bu gecə millətə yetir qərarı,
Bəs etdi gördü xiyaban Şəhidin.

Yuyaq qanı qanla bitsin bu acı,
Millətin başından getsin bu acı,
Ayağa qalxaq ki, itsin bu acı,
Yerində yatsın firavan Şəhidin.

## Ana, oğlun şəhid olsa, ağlama

Artıq sona yetir bu qüssə kədər
Ana, oğlun şəhid olsa ağlama.
Vətənçün bir igid ölməz ki hədər
Ana, oğlun şəhid olsa, ağlama.

Tapıb ürəyində təpər öylə sən,
"Qoy vətən sağ olsun", yenə söylə, sən
Mənə gəl haqqını halal eylə, sən,
Ana, oğlun şəhid olsa, ağlama.

Ağlayıb qəlbinə yara bağlama,
Qırmızı yaraşar qara bağlama,
Bu zirvə vətənçün zora bağlama
Ana, oğlun şəhid olsa, ağlama.

Yaraşmaz başını dikəsən yerə,
Məzarım üstündə çökəsən yerə,
İstəməm göz yaşı tökəsən yerə,
Ana, oğlun şəhid olsa, ağlama.

Vətən yolumuzu gözləyib ağlar,
Başına qaralar bağlayıb dağlar,
Mən ölsəm haqqımda danışar sağlar,
Ana, oğlun şəhid olsa, ağlama.

Bilirəm dayanar ürəyin atmaz,
Gözlərin bir daha yuxuya çatmaz,
Ehtibar Məxfi də Vətənin satmaz!
Ana, oğlun şəhid olsa, ağlama!



## Şəhid Anası

Üç ildir qurumur gözünün yaşı,
Nə olar ağlama, şəhid anası.
Hər gün məzarına gedib dərdini,
Yenə varaqlama, şəhid anası.

Baxma sən oğlunun cavan yaşına,
Adını həkk etmiş qan yaddaşına.
Oğlun şəhid olub deyə başına,
Qaralar bağlama, şəhid anası.

Artıq ürəyini sevinclə ovut,
Övladın şəhiddir, demirəm unut.
Sil artıq gözünün yaşını qurut,
Coşaraq çağlama, şəhid anası.

Vətəndən zərrə pay olmaz deyiblər,
Türkdən bayrağını almaz deyiblər,
Çıxan qan damarda qalmaz deyiblər,
Qəlbini oxlama, şəhid anası.

O Vətən uğrunda ölməyə gedir,
Düşmənin dərdini bilməyə gedir,
Düşünmə gedirsə ölməyə gedir,
İgidi saxlama, şəhid anası.

Vətəni qorudun üzün ağ olsun,
Şəhidsən övladım, Vətən sağ olsun!
Düşmənin ürəyi baxıb dağ olsun,
Sən qəlbi dağlama, şəhid anası.

## Vətənin dilindən

Qoyma tapdaq altda daha...
Artıq məni azad elə.
Sevinməsin düşmən bizə,
Hərdən gəlib bir yad elə.

Gözüm qalıb yolda izdə,
Qoxunuzu özləmişəm.
Görün neçə ildi hər gün,
Yolunuzu gözləmişəm.

Fəsillərim gəlməz olub,
Bahar mənə qış kimidi.
Hər atılan güllə mənə,
Sizlərdən alqış kimidi.

Qalx ayağa Azərbaycan!
Qovuş daha son kəs mənə.
Gəlişinin heyranıyam,
Gəlir hər gün həvəs mənə.

Azadlığı bilməz çoxu,
İllərdi məhbus kimiyəm.
Düşünürdüm unutmusuz
Yad əldə məyus kimiyəm.

Qeyrətinə qurban olum,
Fəxr edirəm sizlər ilə.
Yolunuzu gözləyirəm,
Həsrət qalan gözlər ilə.





## ELNUR QƏRARİ

### Fatehlərin səfər günü

Bu gün mərdlik, hünər günü,
Fatehlərin səfər günü,
Şanli Türkün zəfər günü,
Düşmənin təlaş günüdür.

İndi Poladıq hamımız,
Hamımız Fərid, Mübariz,
Daha dişə diş, gözə göz,
Artıq başa baş günüdür.

Hər əsgər bir tarix yazır,
Meydanda düşmən qan qusur,
Xalqım qələbəyə hazır,
Millətin ən xoş günüdür.

Cənab Ali Baş Komandan,
Əmr et dönmərik bu yoldan,
Vətən deyib keçək candan,
Haqq üçün savaş günüdür.

## Sevincdən kədərəcən...

Dilim Vətən sayıqlar,
Hər gecə səhərəcən.
Fəryadımdan qan ağlar,
Tanrı göydən yerəcən...

Ahım dağlardan aşar,
Qarabağı dolaşar,
Xan Araza qarışar,
Yetişər Xəzərəcən.

Könlümə Vətən düşər,
Dərdim ömrə tən düşər,
Gözlərimə çən düşər,
Sevincdən kədərəcən.

Belə qara gün olmur,
Səadət mənim olmur,
Yuxularım çin olmur,
Bakıdan "Qərər"əcən...



## Qartal

Qartal götür məni qanadlarına,
Apar Qarabağı dolandır, gətir.
Seyr edim Şuşada cıdır düzünü,
Sonra Kəlbəcərə Laçına yetir.

Çıxaq Xankəndindən bir az qırağa,
Xocalıya sarı yol alaq gedək.
Göz yaşı axıdıb biz bu torpağa,
Qurban gedənlərin ruhun yad edək.

Ordan Füzuliyə, Ağdama gedək,
Ruhum qanadlansın uçsun bir anda.
Qubadlıdan keçək, aşaq arazı,
Oturaq dincələk biz Zəngilanda.

Qartal o yerlərdən asta keç nolar,
Tələsmə çatanda sən Cəbrayıla.
Əhvalım dəyişər, gözlərim dolar,
Həsrətlə baxanda mən Cəbrayıla.

Qartal muradıma yetir sən məni,
Doyunca dolaşım gəzim vətəni.
Elə ki yetişdin sən bizim kəndə,
Qanad çal, dövrə vur, yerə en səndə.

Gəzim o yerləri mən qarış-qarış,
Öpüm torpağını, öpüm daşını.
Öpüm vətənində kimsəsiz qalmış,
Mən qərib atamın məzar daşını.

## Yuxum cəhənnəm yuxusu...

Yuxum cəhənnəm yuxusu,
Çöllər boz-boz, qara-qara,
Nə rəngi var, nə qoxusu, –
Güllər boz-boz, qara-qara.

Viranədir yal-yamacı,
Hər tərəfdə qəm ağacı,
Meyvəsi zəhərdən acı, –
Kollar boz-boz, qara-qara.

Gözlər həyəcan içində,
Sir-sifətlər qan içində,
Qovrulur böhtan içində, –
Dillər boz-boz, qara-qara.

Boyunlarda zəncirə bax,
Ayaqlarda kəndirə bax,
Adam dolu təndirə bax, –
Küllər boz-boz, qara-qara.

Dönüş yoxdur bu səfərdən,
Ümid kəsilib hər yerdən,
Aman diləyir göylərdən, –
Əllər boz-boz, qara-qara.

## Atam səfərə getdi

Bir səhər evdən çıxıb
Atam getdi səfərə
Çox gözlədim yolunu
Axşam oldu gəlmədi
Gecə oldu gəlmədi



Az qalırdı səhərə
Qayıtmamışdı hələ

***

Pəncərənin önündə
Dayanmışam səhərdən
Gözləyirəm yolunu
Atam dönmür səfərdən
Boğuluram qəhərdən

***

Səhərəcən yatmadım
Dan yeri söküləndə
Küləklər verdi xəbər
Kaşki bitməzdi gecə
Açılmazdı bu səhər
Özü ilə bərabər
Gətirdi qara xəbər!
Gətirdi qara xəbər!

***

Əsgərlər gəlirdilər
Evimizə o səhər
Dönüb baxdım boylandım
Atam döndümü görən?
Amma atam yox idi
Gələnlər arasında
Əsgərlər sırasında
Nə atamı görürdüm
Nə duyurdum səsini
Əsgərlər gətirdilər
Bayraq ilə örtülmüş
Qanlı cənazəsini

***

Axışdı dəstə-dəstə
Evimizə gələnlər
Eşidənlər bilənlər
Saçın yoldu bibilər
Saçın yoldu xalalar
Evimizi bürüdü
Oxşamalar lalyalar

***

Nənəm fəryad qoparır
Babam nalə çəkirdi
Anam ömrünə təklik
Toxumların əkirdi

***

Nənəm diz üstə çökmüş
Kədər belini bükmüş
Qucaqlayıb balasın
Oxuyur son laylasın

***

Oğul dərdim böyükdür
Çiyinlərimdə yükdür
Sənsiz mən neyləyərəm
Dərdin qəddimi bükdü

***

Dərdimə yoxdu çara
Oğul yaram dərindir
Bala getmə məzara
Ora mənim yerimdir



***

Anam vaxtsız itirir
Ən yaxın sirdaşını
O son dəfə atamın
Tumarlayır başını
Ömür gün yoldaşını
Göndərir son mənzilə
Ardından gilə-gilə
Axıdır göz yaşını
Qucaqlayır başını

***

Məndə qalıb bir küncdə
Olanları bayaqdan
Seyr edirəm sakitcə
O dəhşətli mənzərə
Gözümnən getmir hələ
Qardaşlarım ağlayır
Gözlərdə yaş çağlayır
Amma kiçik qardaşım
Bunu dərk etmir hələ
Hey baxır gələnlərə
Hey baxır gələnlərə

***

Atam getdi səfərə
Çiynində boz çantası
Atıldı səngərlərə
Yüzlərlə əsgərlərə
Yardım etdi yetişdi
Qurtarmaqçün zülümdən
O qorxmadı ölümdən
Səngərlərdə düz getdi
Sonda canından keçdi.



## EMİN BAYRAMLI

Bayramlı Emin Elşad oğlu 7 mart 2010-cu ildə Bakı şəhər Yasamal rayonunda anadan olub. Hal-hazırda Salyan rayonu Kərimbəyli kənd Həsən Şahbazov adına məktəbin 5-ci sinif şagirdidir. Şeirləri "Günəşin Nuru" 3, 4 antologiyalarında, "Unutmadıq şəhidim!" kitabında, "Qarabağın ilk qalib Generalı", kitabında, "Azad qələm" jurnalında və qəzetində, "Söz" və " Vətənpərvərlər" qəzetlərində, eləcə də Türkiyədə "Maki" dərgisində çap olunub. Bütün bu uğurlarla yanaşı həm də BMT nin tərkibində olan UNESCO-NUN Ədəbiyyat və Jurnalistika Akademiyasının üzvüdür. UNESCO-nun keçirdiyi 17-ci distant beynəlxalq onlayn festivalının qalibidir. Çalışqanlığı və istedadı sayəsində bir çox müxtəlif Fəxri Fərmanlara və Diplomlara layiq görülüb.



### Azərbaycan Ordusu

Fəxr edirik sizinlə,
Ey qüdrətli ordumuz.
Daim zəfərli olsun
Bu müqəddəs yolunuz.

Hər zaman biz fəxrlə,
Gözləyirik sizləri.
Qələbə xəbərilə,
Sevindirin bizləri.

Azərbaycan Ordusu
Yenilməz heç bir zaman.
Tanrı qorusun sizi,
İgidlərim, hər bir an!

### Qarabağ Candır

Qarabağ Candır,
Azərbaycandır.
Qələbənlə sən,
Düşməni yandır.

Ucalsın səsin,
Gəlsin nəfəsin,
Ey ana yurdum,
Gəl oxu həzin.

Azərbaycansan,
Damarda qansan,
Sən, ey Qarabağ,
Sən bizə cansan.

## Azəri Türk Pakistan

Biz üç qardaş ölkəyik,
Azəri Türk Pakistan.
Bir-birinə dəstəkdir,
Onlar üçü hər zaman.

Türkiyə və Pakistan,
Çatdı bizə köməyə.
Biz eşq olsun deyirik,
İki qardaş ölkəyə.

Sən çox yaşa Türkiyəm,
Səninlə fəxr edirik.
Pakistana eşq olsun,
Biz alqışlar deyirik.

## Şuşa

Bizlər üçün bayramdır,
Çünki Şuşa azaddır.
Üç rəngli bayrağımız
Şuşada dalğalanır.

Həddi yoxdur sevincin
Sevinirik nə qədər.
Şuşanı azad etdik,
Əzablar deyil hədər.

Açılacaq bir daha,
Bizə Şuşa yolları.
Tariximiz unutmaz,
Şuşada olanları.



## Laçın

Əziz Laçın, bu gün biz,
Gəldik səni almağa.
Düşməndən xilas edib,
Bu zəfəri çalmağa.

Qoy qaçsın ermənilər,
Laçın bizimdir axı.
Orda qırılan xalqın
Bəs nə idi günahı?

## Qələbə

Azərbaycan əsgəriyəm,
Söz verirəm bu torpağa.
Mən başımla cavabdehəm,
Ay ulduzlu bu bayrağa.

Ucaldacam zirvələrə,
Azərbaycan bayrağını.
Düşmənləri məhv edərək,
Qoruyacam torpağımı.



## ESMİRA GÜNƏŞ

Esmira Günəş 15 iyul 1989-cu ildə Gəncə şəhərində anadan olub. İlk dəfə şeirləri 2010-cu ildə "Rəy" jurnalında dərc olunub. "Azərbaycan qızıyam"( 2018), "Sevgi sarayı"(2018), "Sarı köynək" (2018- yarımüəllif), "Qadın güldür, bacarsan güldür"( 2019) kitablarının müəllifidir. "Günəşin Nuru" 1-2-3-4 və "Sevgi damlası" antologiya layihələrinin təsisçisi, "Unutmadıq şəhidim!" kitabının tərtibçisidir. Şeirləri "Turana açılan könüllər", "Əsrlərə körpü", "Qarabağın ilk qalib generalı", Türkiyədə "Korona tufan 2020", "Şiir Yağmuru" antologiyalarında, "Ana şeirləri" almanaxında, eləcə də romanından bir parça "Zərif kölgələr" antologiyasında dərc olunub. Bundan əlavə "Xəzan", "Ulduz", "Azad qələm" jurnallarında da şeirlərinə daimi yer verilir. Həmçinin şeirləri və məqalələri Azərbaycanda "Qərb informasiyası", "Oxu məni", "Haqqın zad qələm" "Kredo", "Vətənpərvərlər" "Atribut", "Sözün gücü", "525-ci qəzet", "Novosti Ganja", "Müəllim sözü", "Yeni Təfəkkür", "Nöqtə" qəzetlərində, Türkiyədə "Maki", " Mevsimler" dərgisində, İranda "Ədəbi körpü" dərgisində, "Məhdi bamdad" qəzetində dərc olunub. "Xan qızı Natəvan" ədəbi məclisinin üzvü, "Günəşin Nuru" ədəbi məclisinin təsisçisi, "Nöqtə" qəzetinin şöbə müdiri, Türkmən Ədəbiyyatçı və Yazarlar Birliyinin üzvü, Türkiyədə "Yedi Bölge Şair Ozan ve Yazarlar Kültür Derneği" nin Azərbaycan təmsilcisidir. Bir çox ədəbi müsabiqələrin qalibi və Fəxri Diplomların sahibidir.



### Sevdiyin cəbhəyə yola düşəndə

Sevdiyin cəbhəyə yola düşəndə,
Alışar ürəyin, yanar ürəyin.
Sınar qol, qanadın düşər yanına,
Özünü kimsəsiz sanar ürəyin.

Burnunun ucu da göynəyər hər an,
Onun həsrətiylə yoldaş olarsan.
Basıb sinən üstə solğun şəklini,
Kağız parçasıyla sirdaş olarsan.

Yollara uzanar nəmli gözlərin,
Dilindən dualar axıb, tökülər.
Şəhid xəbərləri aldığın zaman,
Gecələr yuxun da ərşə çəkilər.

## Oğul əskər gedəndə

Bir oğul səngərdə silah tutarkən,
Bir ana gecələr yuxusuz qalar.
Bir körpə boylanar o gedən yola,
"Ata gəl məni də özünlə apar."

Bir gəlin gözündən düşər mirvari,
Baxışı gizlənər, görən olmasın.
Bir bacı hıçqırar öz ürəyində,
Yetər ki, balanın gözü dolmasın.

Hər gələn sədaya titrəyər qəlbi,
Baxışlar dikilər qapıya o an.
Evində bayrama çevrilər hər gün,
Əsgərlər salamat döndüyü zaman.

## Zəfər nəğməsi

Bir zəfər nəğməsi çalınsın daha,
Qarabağ sözünün nidası olsun.
Şəhid anaları qalxsın ayağa,
Bu dəfə gözləri sevinclə dolsun.

Alınsın qisası şəhidlərimin
Qoy Vətən həsrəti yetişsin sona.
Coşsun mürəkkəbi əldə qələmin,
Gözəl bir şeir də həsr edim ona.

Günəş Qarabağdan saçsın nurunu,
Payızın yağışı nura boyansın.
O yatmış torpağım, mürgülü Vətən,
Nəhayət bir sabah bizlə oyansın.



Bülbül cəhcəhində Qarabağ desin,
Nəğməsi yayılsın bütün ellərə.
Bitsin müharibə, çalınsın zəfər,
Bu zəfər nəğməmiz düşsün dillərə.

## İndi zəfər vaxtıdı.

Nə qədər yazacaqdıq,
Xocalı harayından.
İgidə həsrət qalan
Qarabağ sarayından.

Şuşanın göz yaşından,
Ağdamın fəryadından.
Öz doğma torpağımın
Özgəsindən, yadından.

Şükür bitdi müsibət,
İndi zəfər vaxtıdı.
Doğan günəş, çıxan ay,
Qarabağın baxtıdı.

İgidlərin bir olub,
Qoruyur torpağını.
Hər qarışda qürurla
Qaldırır bayrağını.

Az qalıbdı, Vətənim,
Bərkiyir qanadların.
Bu dəfə yaman qorxub,
Bir-bir qaçır yadların.

Şəhidlərin ruhu da
Gülümsəyir səmada.

Azərbaycan torpağı
Verilməyəcək yada.

"Zəfər günləri" deyə.
Yeni tarix yazılır.
İndi bütün yuxular
Qarabağa yozulur.

## Ağlama qəlbim

Ağlama qəlbim,
Vətən şəhidsiz olmaz.
Axan günahsız qanlar
Heç zaman yerdə qalmaz.
Bir gecənin içində
Yandı Gəncəmin bağrı
Bərdənin fəryadı tək
Yoxdur heç yerdə ağrı.
30 ildir Qarabağ
Gözündə yaş olmuşdu.
Gözlərinin önündə
Neçə həyat solmuşdu.
Şükür bitdi müsibət
Azaddır Qarabağım,
Şuşada, Qubadlıda
Çiçəklənəcək bağım.
Üzü gülür Laçının
Cəbrayılın yolu nur
Azərbaycan ordusu,
Xalq sizlə qürur duyur.
Çaldığınız bu zəfər
Tarixə iz salacaq
Hər zaman xatırlanan
Böyük zəfər olacaq.





## XATİRƏ SƏFƏROVA

Səfərova Xatirə Natiq qızı 22 avqust 1988-ci ildə Qəbələ rayonunda anadan olub. Hal - hazırda 316 nömrəli tam orta məktəbdə ingilis dili müəllimi işlayir. Şeirləri ilk dəfə "Günəşin Nuru 4" antalogiyasında çap edilib. Eyni zamanda "Unutmadıq Şəhidim!" və "Qarabağın ilk qalib Generalı" kitablarında da şeirləri yer alıb.

## Şəhid anası

Gör neçə müddətdir gülə bilmirdim,
Qəlbin də sevinci sönərmiş, Allah!
İnana bilmirəm mən bu gerçəyə,
Bu həsrət Zəfərə dönərmiş, Allah!

Günlər həftələri əvəz eylədi,
Əsgərim, səbrinə, gücünə qurban!
Qarabağ uğrunda vuruşan oğlum,
Haqla qazandığın öcünə qurban!

Düşünmə ananın gozləri yaşdı,
Analar adətən ağlar balayçün.
Zəfər bayrağını başına bağlar,
Qəlbini əbədi dağlar balayçün.

Zəfərə susamış doğma diyarım,
Canın bahasına, bax, tən olubdur.
Şəhidlik məqamın mübarək olsun,
Torpağım bölünməz Vətən olubdur!!

## Can Qarabağım

Sənin qələbəni Allah yazıbsa,
Mən necə kədərli ola bilərəm?
Üstünə uzanan düşmən dilini
Kəsərəm, canın da ala bilərəm!

Zəfəri qazandın, can bahasına,
Qürurla başını dik tut, Vətənim!
Borcluyuq Şəhidin biz anasına,
Qanlı göz yaşları qurut, Vətənim!



Cənnətə döndərmək borc olsun bizə,
İllərdir o dustaq, məsum torpağı.
Ömürlük yaz, Allah, taleyimizə,
Azad Qarabağı, Can Qarabağı!

## Bayrağım

Sən çıxmısan zülmət, zülmün içindən,
Aydınlaşır daha bütün sabahlar.
Ey uğruna ŞƏHİD olan bayrağım,
Nahaq yerdə qalmayıbdı bu ahlar.

Doya-doya torpağında gəzəsən,
Bax, qələbə qoxur artıq bu hava.
Gözümüzü sevinc yaşı bəzəsin,
Qələbəylə möhürlənsin bu dava!!

Yaşadıqca bu xalqımız, ordumuz,
Fəxr eylə sən, qürurla sən, dalğalan.
Sənə baxıb köks ötürsün, düşmənin,
Qoy əbədi köksü qalsın dağlanan.

## AZƏRBAYCANIM!!

Əyilmə sən bir daha
Polad Azərbaycanım!!
Tək yolun var Qələbə!
Cihad! Azərbaycanım!!
Ruhunu sındırmasın
Şəhidlərin çoxluğu.
Üzməsin ürəyini
Poladın, Mübarizin

İgidlərin yoxluğu.
Azadlığın şərbəti
Şəhid qanı dadacaq.
Nə qədər ki millətdə
VƏTƏNİNƏ SEVGİ VAR.
Əngəl olsa da kimsə
Canları bahasına
VƏTƏNİ YAŞADACAQ!
Ana Vətən uğrunda
Ölən olmasa əyər.
Həmin torpaq gün-gündən
Məhvinə doğru gedər.
Şəhidlərin ruhunun
Naminə ayağa qalx!!
Sən də Vətən oğlusan
Vətənin dərdinə yan!!
Gəl halına sən də bax!
Qırıb içimizdəki
Kin, küdurət zəncirin
Birlik halqası qurub.
Yağı düşmən boynundan
Asmaq gərəkir çoxdan
Ədalətin kəndirin!!

## İgidim

Sən mən hamımız,
Bir olmalı andımız
Bir udmalı havanı
Bir udmalı davanı.
Yansaq birgə yanmalı
Qalıb birlik olmalı
Yağıların canına



Şəksiz qorxu salmalı.
Ən kiçik daş, kəsəyi
Sıx köksünə, bağrına
Dönə-dönə qurban ol
Sən Vətən torpağına
Dua et gecə gündüz
Səngərdə yatanlara
Vətən üçün canını
Atəşə atanlara.
"Atəş" deyən səsinə
Qurbanam nəfəsinə
Üstü barıt qoxulu
Üstü qanlı igidim!
Əmanət torpağına
Sadiq, şanlı igidim!



## İRADƏ ELDARLI

İradə Əhmədova 19 fevral 1962-ci ildə Samux rayonunun Eldar mahalında anadan olub. 1981-ci ildə M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumunu bitirərək müəllimlik fəaliyyətinə başlayıb. 1987-1991-ci illərdə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda təhsil alıb.1997-ci ildə ailəsi ilə birlikdə Rusiya Federasiyasının Ekaterinburq şəhərinə köçmüşdür. Bu illər ərzində şeirləri bir çox mətbuat orqanlarında dərc olunmuşdur. 2018-ci ildə "Elin səsi" qəzetinin Fəxri Diplomuna və KİV-in qərarı ilə "Qızıl qələm" Media Mükafatına layiq görülmüşdür. Ekaterinburq şəhərində Azərbaycan səfirliyi tərəfindən keçirilən tədbirlərdə yaxından iştirak edir. "Bahar həsrəti" adlı kitabın müəllifidir.



### Köksü yaralı Vətən

Məndən aralıdı Vətən,
Köksü yaralıdı Vətən.
Gecə- gündüz sənin üçün
Dilim dualıdı, Vətən.

Dost dediyin namərd çıxdı,
Üstünə çox dərdlər yıxdı.
Gülə- gülə düz arxadan
Kürəyinə güllə sıxdı.

İgidlərin sinə gərir,
Köksünü gülləyə verir.
Düşməni dəf etmək üçün,
Şəhid olub, qurban gedir.

Gözü yaşlı anaları,
Yetim qalmış balaları,
Bir gün çağırar qoynuna,
Azad olmuş yuvaları.

Oğul, vermə bir daşını,
Sil Vətənin göz yaşını.
Gətir, ayaqlarına at,
Əyilmiş düşmən başını!

### Vətənim

Ömürlük yarım Vətənim,
Ay vəfadarım, Vətənim
Ah- naləni seyr etməyə
Yoxdu qərarım, Vətənim.

Hər tərəfdən göz dikilib,
Köksünə dağlar çəkilib.
Çül- çiçəkli bağ - bağçanda
Tikan, qanqallar əkilib.

Neynəyim, nə kömək edim?
Bir əsgər tək öndə gedim.
İlahidən güc alaraq,
Düşmənin bağrını didim.

Silinsin axan göz yaşın,
Qələbə olsun savaşın.
Birdəfəlik qoy tökülsün,
Düşmənin başına daşın.

Çabalasın, çalxalansın,
Acgözün gözü oxlansın.
Qarabağda, uca yerdə
Üçrəngli bayrağın qalxsın!

## Qüdrətli Azərbaycanım

Var ol, yaşa həmişə
Doğma Azərbaycanım!
Hər çətinlik önündə
Mərd, məğrur dayananım.

Qüdrətlisən, ulusan,
Məhəbbətlə dolusan.
Dünyaya görk eyləyən
Bir ədalət yolusan.

Müqəddəsdir ocağın,
Əzizdir hər bucağın.



Qəlbimizə təpərdir,
İsti ana qucağın.

Qarabağ körpə balan,
Tək sənə arxalanan.
Qoy ömürlük ağlasın,
Gözünü yaşlı qoyan.

Xoş günlərin düzülür,
Düşmən sınır, üzülür.
Səhifənə qürurla
Şanlı tarix yazılır.

## İgid əsgər

Get irəli, igid əsgər,
Nəfəs alsın Vətən, yetər.
Düşmənin törətdiyini,
Ver özünə, ondan betər!

Qoyma əldən yarağını,
Vətən duysun dayağını.
Möhkəm dayan öz əhdində,
Göyə qaldır bayrağını.

Bütün dünyaya yayılsın,
İgidliyinin sorağı.
Yağı xiffətdən bayılsın,
Geri qaytar Qarabağı!

Böyük xalq durur arxanda,
Qələbə günü yaxında.
Qəlbin vursun qürur ilə,
Zəfər bayrağı qalxanda.

Yurdum qaynasın, çağlasın,
Düşmən qəlbini dağlasın.
Qızlar sənə vermək üçün
Çiçəkdən dəstə bağlasın.

## Zəfər büsatı

Sən ömrümə doğan günəş,
Sən qəlbimdə sönməz atəş.
Odlar yurdum, Azərbaycan,
Bir yumruqtək möhkəm birləş!

Neçə-neçə zərbə aldın,
Düşmən tapdağında qaldın.
Qisasını almaq üçün
Sən illərlə güc topladın.

Qarabağdı böyük dərdin,
Yağıya göstərdin həddin.
İşğallardan xilas oldu,
Zəbt olunmuş şəhər, kəndin.

Düşmən oldu pərən-pərən,
Güllələrə sinə gərən
Ordun qələbə qazandı,
Hər oğulun igid, ərən.

Qeyrətli xalqımın zatı,
Dədə Qorqud amanatı.
Qarabağda qurulubdu
Çaldığın zəfər büsatı.





## İSRAYIL NOVRUZOV

Novruzov İsrayıl 1964-cü ildə Kürdəmir rayon Muğanlı kəndində anadan olub. İlk kitabı 2005-ci ildə "Dəmirçinin kövrək duyğuları", ikinci kitabı isə "Allah da, Quran da əməlindədir" kitabı olub.

**Saxlama atəşi,**
**saxlama qəti!**

Sizə and verirəm, allah eşqinə
Zülmətli gecəyə, sabah eşqinə
Tökülən qanlara, min ah eşqinə
Göstərin düşmənə qatı şiddəti
Saxlama atəşi, saxlama qəti!

Göstər şərəfsizə, göstər özünü
Sındır hər yerini, çıxart gözünü
Namərd dünya görsün Haqqın sözünü
Bu xalqın şərəfi, var ləyaqəti
Saxlama atəşi, saxlama qəti!

Yüz illər zülmünü yetirin sona
Analar əlinə qoysunlar xına
Yeni nəfəs gəlsin Azərbaycana
Heydərin ruhuna edək hörməti
Saxlama atəşi, saxlama qəti!

Tüpürün haqqı yox yer kürəsinə
Axı orun bu xalqın təqsiri nə
Siz çevirin qanunları tərsinə,
Əsgərim! 30 il yordu milləti
Saxlama atəşi, saxlama qəti!

Dünyada natamam yaşamaq cəza
Bəşər bizə qarşı eylədi qəza
Əldə silah gərək oturaq namaza
Kafər anlamadı, Qur'an, rükəti
Saxlama atəşi, saxlama qəti!



Atəş, çək tətiyi hər anda atəş
Mən atəş oğluyam, qanımda atəş
Atəş açmalıyam atəşə atəş
İsrail atəşin son qətiyyəti
Saxlama atəşi saxlama qəti!

**Heydər Baba, gözün aydın**
*("Heydər Babaya Salam" şeirinə nəzirə)*

Dəstə baba, çiçək baba, gül baba,
Unudarmı məyər səni el, baba!
Sil Gözünü canım baba, sil, baba,
Heydər Baba, gözün aydın!

Ötür bulud yeni günəş gün doğur,
Azərbaycan məhz yenidən doğulur.
Arzularım reallaşır, çin olur,
Heydər Baba, gözün aydın!

Ulu öndər baş əyirəm ruhuna,
Milyon salam göndərirəm ruhuna.
Şad bir namə göndərirəm,
Heydər Baba, gözün aydın!

Azərbaycan vətən olmuş eşq camın,
Mərdi oldun rəzil, namərd dünyanın.
Qısasını alır igid İlhamın,
Heydər Baba, gözün aydın!

Canım baba, sən olmusan sən mətin,
Xalqı birgə görmək idi niyyətin.
Rahat uyu, cəm olubdu millətin,
Heydər Baba, gözün aydın!

Gözüm baba, yeni şuar dünyada,
İgid oğlun imza atdı bu ada.
Qarabağ Azərbaycandır, nida,
Heydər Baba, gözün aydın!

Heydər Baba düşmən yaman çaşdı hey,
Xudafərin üzüklərdə qaşdı hey.
Heydər Baba Suqovuşan daşdı hey,
Heydər Baba, gözün aydın!

Heydər Baba Qarabağın elləri,
Azad olub gül açıbdı gülləri.
Alqış vurur, Şəhriyarın əlləri,
Heydər Baba, gözün aydın!

Heydər Baba qurban olum türkünə,
Türk elinə, qurban olum türkünə.
Şad ol baba, Birləşmişəm türklə mən,
Heydər Baba, gözün aydın!

Heydər Baba Ərdoğana salamlar,
Ər kişiyə, ər doğana salamlar.
Türkün eli hey ruhunu salamlar,
Heydər Baba, gözün aydın!

Şükürlər arzumuz dəymədi daşa,
Ordumuz irəli gedir birbaşa.
Bugün azad oldu müqəddəs Şuşa,
Heydər Baba, gözün aydın!

Babacan, olmasın bir daha qəmin,
Əmin ol vətəndən, əmin ol, əmin.
İsrail ruhuna baş əyir sənin,
Heydər Baba, gözün aydın!



## Şəhid olmaq istəyirəm



Canım Vətən, gözüm Vətən,
Şirin kəlməm, sözüm Vətən,
Sənə qurban özüm Vətən,
Yadda qalmaq istəyirəm,
Şəhid olmaq istəyirəm!

And içirəm vicdanıma,
Düşmən susayıb qanıma.
And içirəm dərd dağıma,
Qaçqın qalmaq istəmirəm,
Şəhid olmaq istəyirəm!

Qara yamaq, getməz ağa,
Dağ çəkilər Qarabağa.
Ölmək deyil! Doğulmağa,
Dünya, sənə səslənirəm,
Şəhid olmaq istəyirəm!

And içirəm fəryadıma,
Bəsdi ruhum geydi qara.
Bəsdi batdıq günahlara,
Xalqı hərbə sələyirəm,
Şəhid olmaq istəyirəm!

Azərbaycan, canım Ana,
Xanımlardan xanım Ana.
Gərək çıxsın canım, Ana,
Səndən üzr istəyirəm,
Şəhid olmaq istəyirəm!

Günahkaram, İsrailəm,
Mən səninəm, sən də mənəm.
Axı sənsiz mən neylərəm,
Düşmən əlin kəsməliyəm,
Şəhid olmaq istəyirəm!



# MƏNZƏR ƏLİQIZI

Əkbərova Mənzər Əli qızı 1958-ci ildə Naxçıvan Rəspublikasının Vayxır kəndində anadan olub. 1979-cu ildə Naxçıvan Dövlət Pedoqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Naxçıvanda və Bakıda müəllim işləmişdir. Şeirləri "Günəşin Nuru 4" antologiyasında dərc olunub.



## Arzu

Qarabağım Azərbaycan,
Hamımıza doğma bir can.
Çəkiləcək qara duman,
Güləcəkdir Azərbaycan.

"Vətən" deyir bu gün hər kəs,
Babalardan gəlir bu səs.
Tanımayıb bizi düşmən,
Saxlayammaz türkü heç kəs.

Azad oldu Lələtəpə,
Düşmən hesabını çəkə.
Ağlın başına toplaya,
Qarabağımdan əl çəkə.

Qarabağı alacağıq,
Şanlı bayraq asacağıq.
Müqəddəs azan səsinə,
Orda qulaq asacağıq.

Gəlsin yenə muğam səsi,
Qarabağın şikəstəsi.
Rahatlansın ana torpaq,
Kəsilsin düşmənin səsi.

Düşmən izin ordan pozaq,
Qələbə dastanı yazaq.
Qarabağda cənnət quraq,
Vaxt yetişib, deyil uzaq.

## Bədxah qonşular

Güclülər əlində maşasız maşa,
Sizi tanımayan düşməz heç başa.
Keçirdik həmişə yuxarı başa,
Quduz canavara dönən qonşular.

Bilməm günahımız nəydi dünyada,
Belə alçaqlara qonşu olmaqda.
Qonaq bilib əzizlədik hər yanda,
Dönüb ilan kimi çalan qonşular.

Arxalı köpəklər arxalandılar,
Nə insanlıq, nə qonşuluq qandılar.
Vəhşilərtək soyqırımı yapdılar,
Məkrli, hiyləgər, xain qonşular.

Yoxdu insanlığa sizin sevginiz,
İblissiz, qəddarsız, daşdı qəlbiniz.
Terrordur, qırğındır əsil işiniz,
İnsanlığa ləkə, nadan qonşular.

Siztək rəzil yoxdu bu yer üzündə,
Torpaq istəyiniz qalsın gözüzdə.
Qalmasın dünyada bir iziniz də,
İnsan cildində şeytan qonşular.

Gəlməsiniz, gətirənlərə lənət,
Xalqa bəla içirənlərə lənət.
Bir gün özünüzə qayıdar əlbət,
Peşəsi qətl, qarət, yalan qonşular.

Bu millət utansın yaşamağına,
Tarixdə bir çirkin ad qoymağına.



Yaxşı varsa, Tanrı çatsın dadına,
Qalan cəhənnəmlik olan qonşular.

Nahaq qanlar bir gün sizi boğacaq,
Xalqım intiqamın axır alacaq.
Haqq cəzası çox şiddətli olacaq,
Az qalıb yetişə, zaman, qanşular.
Heç verməriк sizə aman, qonşular.

## Əsir dağlarımıza

Hanı ellərin, dağlar?
Şirin dillərin, dağlar?
Həsrət yaman ağlatdı,
Axdı sellərin, dağlar.

Bilinmir yaşın dağlar,
Çatılıb qaşın, dağlar.
Ah! Nələr, nələr gördün,
Ağardı başın, dağlar.

Açmasın gülün, dağlar,
Axmasın suyun, dağlar.
Səni düşmən ayaqlar,
Bitməsin otun, dağlar.

Haqqın dönməz üzü var,
Gecənin gündüzü var,
Qəhr olsun qarı düşmən,
Həqiqətin bir üzü var.

Düşmən arxalı köpək,
"Dayısı" ona kömək.

Qalx ayağa, qoca türk,
Tək Allah sənə kömək.

## Qisas

*General Polad Həşimovun əziz xatirəsinə.*

Ey torpaq, sev onu, əzizlə onu,
Fəxr elə qoynuna gör kim gəlibdi.
Bir övliya xislət, bir mərd fədai,
Polad kimi müqəddəsim gəlibdi.

O gülən gözləri, nurlu siması,
Dağ çəkdi, dağ çəkdi Azərbaycana.
Ölsün qarı düşmən, vətən sağ olsun,
Qurbanam mərd doğan Azərbaycana.

Sevdiyi vətənçün canından keçdi,
O sadə, qəhrəman, məğrur general.
Güləcək arzusu, mütləq güləcək,
Ey vətən əsgəri, qisasın tez al.

Ölmədi, dirilik bəxş etdi xalqa,
Birləşdi yumruqtək tam Azərbaycan.
Gənc, qadın, qoca birgə hayqırdı:
"Qurbanıq biz sənə, can Azərbaycan."

Onu tutammadı bu nahaq dünya,
Pak ruhun mələklər alıb apardı.
Şərəfli, qəhrəman ömür yaşadı,
Tanrı sevdiyini sevib apardı.

Qurtulacaq bizim anamız torpaq,
Sonsuzmuş qəlbində vətən sevgisi.



Qoy rahat uyusun O böyuk insan,
Ona milyonlarla qəlbin sevgisi.

Poladlar yetirən müqəddəs torpaq,
Düşman tapdağında qalmayacaqdır.
Kor və kar olsa da, o böyük güclər,
Qisas qiyamətə qalmayacaqdır.

## Ədalət

Viran olub Qarabağım,
Uca dağım, yaşıl bağım.
O arxalı xain düşmən
Neçə qətliamlar yapdı,
Abad yurdlar viran qaldı.
Amma heç vaxt haqq əyilməz,
Ayaq tutar şər yeriməz.
Ümidliyik biz sabaha,
Dünya belə qalmaz daha.
Qarı düşmən qəhr olacaq,
Qarabağım alınacaq.
Bunu mənə Haqqım deyir,
Göylərdən də uca olan
Ədalətin özü deyir.
Bunu mənə Mübariztək,
Qəhrəmanın ruhu deyir.
Bir gül kimi açılmamış,
Qönçə ikən soldurulmuş,
Körpələrin ruhu deyir.
Qayalardan özün atan
Qız-gəlinin ruhu deyir.
Meşələrdə donub qalan
Qadınların, qocaların

Fəryadları, ahı deyir.
Bunu mənə talan olmuş
Yurdlarımın özü deyir.
Bu İlahi ədalətdir,
O mütləqdir, o mütləqdir.
Ulularsa gözəl deyib:
"Ədalət hər zaman güclü,
Gücdə ədalət olmalı".
Hər təməldə Haqq olmalı,
Olmasa o dağılmalı.





## MÜŞFİQ ƏLİYEV

Müşfiq Mürşüd oğlu Əliyev. Füzuli rayonunun Saracıq kəndində anadan olub. 1995-97-ci illərdə BDU-nun Jurnalistika fakültəsində ali təhsil alıb. Həmin illərdə çoxlu şeirləri, publisistik yazıları "Xalq Sözü", "Sərbəst düşüncə" qəzetində, "Aran ədəbi toplusunda", "Aran ədəbi jurnalında" və dövrü mətbuatda işıq üzü görüb. "Sevgi nəfəsi" adlı kitabının nəşrinə hazırlaşır. Hazırda Təhsil Şöbəsində işləyir.

## Şəhidlər

*(20 Yanvar şəhidlərinin ruhuna ithaf edirəm)*

Qucaq-qucaq qərənfillər,
Yoldu körpə ləçəyini.
Hücum çəkdi daş güllələr
Qırdı ömrün ləçəyini.

Lay-lay oldu balalara,
Anaların qanlı səsi.
Döndü ömür qalalara
Səngər oldu nəfəsləri.

Döyüşlərdə zəfər çaldı,
Azadlığın nur səhəri.
Yerini torpaqda saldı
Şəhidlərin ömürləri.

## Ey türk oğlu

Ey Türk oğlu!
Sən qorxmaz bir igid əsgər,
Nər oğlu nər doğulmusan.
Düşmənlərə qan udduran
Şir ürəkli Türk oğlusan.
Şərəfli bir tarix yazan,
Sərkərdəsən, sən ordusan.
Öz gücünlə zəfər çalan
Azərbaycan Boz qurdusan.
Ey Türk oğlu!
Şəhidliyin, qaziliyin,
Qalibiyyət məktəbidir.



Ölməz adın nəsillərin
Yaddaşında əbədidir.
Ey canını fəda etmiş,
Sən Vətənsən, Vətən də sən.
Bu torpağın, bu ocağın
Övladısan Vətəndə sən.

## Məndən sor, necə ağlayır

Dilimdə Vətən kəlməsi,
Röyamda həsrət nəğməsi,
Şəhidlərin haray səsi
Məndən sor, necə ağlayır.

Ağrısından bu yer üzü,
Yaddaşın silinməz izi,
Anaların qanlı üzü
Məndən sor, necə ağlayır.

Çadır-çadır didərginlər,
Dərd əlində bu qəmginlər,
Vətənsiz qara günlülər
Məndən sor, necə ağlayır.

Nisgil, hüzün, yas içimdə,
Duman, yağış, sis içimdə,
Bu kədəri as içimdə
Məndən sor, necə ağlayır.

## Ay ocağı sönən yurdum

Kiriməyən yurdum mənim,
Vətənimdə Vətənsizdi.
Ay ocağı sönən yurdum
Şair qəlbim bil, sənsizdi.

Torpağına həsrət qalan,
Yuvasız bir qərib quşam.
Vətən deyib gözlərimdən
Sel tək axan, axan yaşam.

Sinəsi qan fəğan edən,
Bir yaralı didərginəm.
Saracıqsız, Qozluçaysız
Ey Xudaya mən qəmginəm.

## Vətən

Qəribsədim qucağına,
Torpağına, ocağına.
Bu həyatın acığına
Məni qoynuna al, Vətən.

Vətəndəyəm, Vətənsizəm,
Qolu bağlı mən sənsizəm,
Boğuluram səbirsizəm
Məni qoynuna al, Vətən.

Qan ağlayır yer də, göy də,
Dözmür artıq ürək dərdə,
Şəhidlər uyuyan yerdə
Məni qoynuna al, Vətən.






## NAHİDƏ ELMAN

Məmmədova Nahidə Elman qızı 3 iyul 1998 ci ildə Şirvan şəhərində anadan olub. Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecini bitirib. Şeirləri " Gənc Yazarların Şeirlər Toplusu", " Günəşin Nuru 2", " Günəşin Nuru 3", " Günəşin Nuru 4", " Sevgi Damlası" antologiyalarında, eləcə də " Unutmadıq şəhidim!" və " Qarabağın ilk qalib Generalı" kitablarında dərc olunub. " Mən niyə Allahdan əlimi üzüm?!" adlı şeirlər kitabının müəllifidir. Yaşadığı bölgənin fəal gənclərindən biri olaraq qatıldığı bir çox tədbirlərdə Fəxri fərmanlara və diplomlara layiq görülüb.

## Şuşa

Neçə ildir həsrətini çəkirdik,
Xəyallarda sənə gedib, gəlirdik,
Dönməyini əvvəl-axır bilirdik.
Şükür olsun əziyyət getmədi boşa,
Bizim idin, bizim oldun, can Şuşa!

Dağlarının çənin aldı igidin,
Düşmənini gözdən saldı igidin,
Tarixinə tarix yazdı igidin,
Unutmarıq həkk edərik yaddaşa,
Bizim idin, bizim oldun, can Şuşa!

Yad ayaqlar təmizləndi elindən,
Bayraqların dalğalandı evindən,
Komandanın dönməz oldu sözündən,
Birdəfəlik son qoyuldu savaşa,
Bizim idin, bizim oldun, can Şuşa!

Bitdi acı illərinin qorxusu,
Ətir saçdı Xarıbülbül qoxusu,
Gerçək oldu Poladının arzusu
Cənnətinə bir daha et tamaşa,
Bizim idin, bizim oldun, can Şuşa!

## Oldum

*(Şəhid Balıyev Hüseynağanın əziz xatirəsinə)*

Həsrətlə yolumu gözləyənlərin,
Gözlərin yollarda qoyası oldum.
Hər insan oğluna nəsib olmayan,
Şəhidlik adını alası oldum.



İmzalar içinə qatıb imzamı,
Qanımla tarixə atıb imzamı.
Düşmənin bağrına vurub imzamı,
Ən ali zirvəyə çatası oldum.

Mərdliyin yolunu tutan atamın,
Dərdin mənə gəlsin deyən anamın,
Xeyirin görməmiş iki balamın,
Uçan qanadların qırası oldum.

Məni məndən artıq sevən qadını,
Ömrümə mənanı verən qadını,
Tək sənsən sevdiyim deyən qadını,
Sevən ürəyindən vurası oldum.

Bilirəm dönməyir o yerə gedən,
Allah yazdığına nə deyim ki mən,
Təki qoy sağolsun həmişə Vətən,
Mübariz yolunu tutası oldum.

## Şəhid Təbriz Həsənovun Anasının dilindən

Gedişindən gör neçə il keçibdir,
Yenə qəlbim arzulayır balamı.
Beləmi tez unuduldum görəsən,
Söyləmir ki, gedim görüm anamı.

Ağı çıxır lay-lay deyən dilimdən,
Könlüm evi gecə-gündüz inləyir.
Simamdakı gülüşümə aldanan,
Mənim nələr çəkdiyimi bilməyir.

Təsəlli də dərman olmur yarama,
Hey sızlayır oğul adlı həsrətim.
Toyun görmək arzusuyla yaşardım,
Çox heyif ki, kəfən oldu qismətim.

Gözlərimin nuru gedib gözümdən,
Evimdəki çırağımda qaralıb.
Güvəndiyim dağlarımın başını,
Çəkilməyən duman çiskin çən alıb.

Kimsə oğlum səsləyəndə yanıram,
İstəmirəm o səsləri eşidəm.
Allahımdan bircə arzum budur ki,
Gedib sənin mənzilində görüşəm.

Ağlasam da, cavab gəlmir səsimə,
Məzarıdır təkcə mənim həmdəmim.
Uca Rəbbim cənnət eylə yerini,
Vətən üçün şəhid olan Təbrizin.

## Gözün aydın Qarabağım

Gerçəkləşdi neçə yuxu,
Yox edildi hədə-qorxu,
İnanmırsan? Özün oxu,
Azad oldu torpaqların,
Gözün aydın, Qarabağım!

Dağlarından getdi duman,
Bitdi nisgil bitdi tamam,
Ey saçını yolan, anam,
Qalxdı yerdən Şəhid qanın,
Gözün aydın, Qarabağım!



Zəfər çaldı ədalətin,
Qaytarıldı əmanətin,
Neçə illik xəyanətin,
Kökün kəsdi oğulların,
Gözün aydın, Qarabağım!

Ətir saçdı Xarıbülbül,
Qəfəsin tərk etdi bülbül,
Rahatlaşın yanan könül
Ruhu şaddır Natəvanın,
Gözün aydın, Qarabağım!

Abadlaşır yurd-yuvalar,
Nəğmə deyir gül balalar,
Qoy eşitsin el-obalar
Köçkün deyil daha xalqın,
Gözün aydın, Qarabağım!

## General mayor Polad Həmişovun əziz xatirəsinə

Yenə göz yaşlarıyla,
Səhəri açdı xalqım.
Düşmənin zərbəsindən,
Şəhid oldu Poladım.

Bir ana ürəyinə,
Yenə çəkildi dağlar.
Dua tökən dilindən
Hey oxundu ağılar.

Nur üzlü balaların,
Çöhrəsinə endi qəm.
Onları izlədikcə
Od tutub yandı sinəm.

Yazıldı tarixlərə
Neçə yaxşı əməli,
Özüylə qoşa getdi
Bir çox arzu diləyi.

Toplaşdı görüşünə
Eli yurdu obası,
Vətən sağolsun deyib
Yola saldı sonası.

Ruhunun qarşısında
Baş əydi cavan qoca,
Qırx beş illik ömrünü
Yaşamadı doyunca.

İllər keçsədə belə
Onu anacağıq biz,
Heç vaxt azalmayacaq
Ona olan sevgimiz.





## NAİLƏ MƏMMƏDLİ

Məmmədova Nailə Şamil qızı 1966-cı ildə Bakı şəhərində anadan olub. İxtisasca mühasibdir. Uzun illər "Aysberq"Səhmdar Cəmiyyətində mühasib olaraq çalışıb. Hal-hazırda həvəskar şair kimi fəaliyyətini davam etdirir. Çox sayda, hər mövzuda şeirlərin müəllifidir.

### Qarabağ biz gəlirik

Addım-addım irəliyə
Gedir müzəffər ordumuz.
Düşmən məkrli olsa da,
Zərrə qədər yox qorxumuz.

Yeni zəfərlərə doğru,
Gedir igid əsgərimiz.
İnşa Allah lap az qalıb,
Yaxınlaşır qələbəmiz.

Öz qanıyla tarix yazır
Rəşadətli mərd ordumuz.
Nəhayət ki, düşmənlərdən
Təmizlənəcək yurdumuz.

Gözün aydın biz gəlirik,
Ağdərə, Xocavənd, Şuşa.
Ərənlərin haqq yolunda,
Döyüşərək gəlir cuşa.

Cəbrayıl, Zəngilan bizdə,
Xocalı, Xankəndi gözlə...
Qubadlı, Kəlbəcər, Laçın,
Yurddaşlara qucaq açın.

Məğrur qartal xəritədə
Dik tutacaqdır başını.
Qarabağım dur qarşıla,
Bu həsrətli yurddaşını.

Bu gün mən fərəh duyuram
Rəşadətli ordumuzla
Ali Baş komandanımla,
Vətənimlə, yurdumuzla.



## Polad Həşimovun xatirəsinə

Sevərdin hər bir əsgəri,
Sən həm dostdun, həm sərkərdə.
Onlar ilə bərabərdin,
Həm döyüşdə, həm səngərdə.

Sən poladtək bərkimişdin,
Yox idi döyüşdən qorxun.
Vətən düşmən əlindəykən,
Çəkilmişdi ərşə yuxun.

Düşmənə layiqli cavab
Verdin "Aprel döyüşü"ndə
Neçə fəxri adlar aldın,
Bu savaşdan dönüşündə.

Qarabəxtli Qarabağın
Uğrunda can fəda etdin.
Azərbaycan Tarixində
Silinməz iz qoyub getdin.

General Polad Həşimov,
Ey mənim ölməz Şəhidim.
Qalmayacaq bircə damla
Qanın yerdə.., budur əhdim.

Sənin itkin ağır zərbə
Oldu bizim elimizə.
Qisasını almaq üçün
Fürsət düşüb əlimizə.

Səni sevən əsgərlərin
Döyüşdədir gözün aydın.

Fərəh duyardın onlarla,
Bu gün həyatda olsaydın.

Sən ey nur üzlü Şəhidim
Unutmarıq səni bir an.
Mərdliyindən yazılacaq
Şeirlər, hekayə, roman.

## Qarabağ bizimdir

Qarabağ azadsan gözlərin aydın,
Qələbə bizimdir, sevinir Xalqın.
Fəxarət hissini yaşayır hər kəs,
Sağ olsun qeyrətli, mərd oğulların.

"El bir olsa, dağ oynadar yerindən",
Əbəs yerə deməmişlər babalar.
"Qarabağ bizimdir"-şüarı ilə,
Verdi sinəsini önə oğullar.

Sağ ol Qələbəni bizə yaşadan,
Müzəffər ordumuz, igid əsgərim.
Sizə minnətdardır bu əzimli xalq,
Ali Baş Komandan, ölməz Şəhidim.

Ruhun qarşısında baş əyirəm mən,
Unutmayacaqdır haqqını Vətən.
Qarabağ torpağı azad olmazdı,
Əgər ki, canından keçməsəydin sən.

İndi bax, uçalır Bayraq göylərdə,
Dik tutur başını Xalqım yenə də.
Son qoyuldu otuz illik həsrətə,
Vüsal üçün alışır qəlb sinədə.



Dalğalanır üçrəngli Bayrağımız,
Birləşib yumruq tək mətin Xalqımız.
Verməri̇k Vətəni biz yad əllərə,
Əbədidir bizim istiqlalımız.
Əbədidir bizim istiqlalımız.

## "Ya Qarabağ, ya ölüm"

Ey müzəffər ordumuz gedin daim irəli,
Zəfər sizinlə olsun, Azərbaycan əsgəri.
İşğal altında qalan torpaqları alın siz,
Qoy sevinsin torpaqlar, var olsun Vətənimiz.

Haydı-haydı igidlər, Vətən sizi səsləyir,
Qarabağ torpaqları ərənlərin gözləyir.
Otuz illik həsrətə son qoyun, ey igidlər!
Rahat yatsın məzarda nur simalı Şəhidlər.

"Ya Qarabağ, ya ölüm"-deyər igid əsgərim,
Təki mən Şəhid olum, gerisi Allah Kərim.
Şəhidlik zirvəsini fərəh sayar özünə,
Vətənin torpağını öpüb qoyar gözünə.

O, gözünü qırpmadan Vətənçün candan keçər,
Son damla qanınadək döyüşməyə and içər.
Nərəsiylə düşmənin canına lərzə salar,
Şücaətlə toropağı düşməndən geri alar.

Zəfər sizin olacaq, buna yoxdur şübhəmiz,
Alınacaq torpaqlar düşmənlərdən tərtəmiz.
Ayaq altda qalacaq saxta düşmən bayrağı,
Məhz həmin gün Xalqımız edəcəkdir Bayramı.

## "Başın sağ olsun Vətən"

Yenə də Şəhidin var, başın sağ olsun Vətən,
Başımız üzərindən qara buluddur ötən.
Evin yıxılsın fələk, yenə bu nə beladır?
Qan ağlayan ürəyim Şəhidimə fədadır.

Şəhidim qurban olum göydən baxan ruhuna,
Son nəfəsdə çəkdiyin iniltinə, ahına.
Şəhidlik şərbətinin sən də baxdın dadına,
Qanınla tarix yazıb şərəf qatdın adına.

Toy-bayramla getmişdin Vətəni qorumağa,
Qara xəbərin gəldi, anan döndü yumağa.
Toyunu edəcəkdi, əhd etmişdi bu payız,
Yolunu gözləyirdi ceyran baxışlı bir qız.

Sızıldayıb göynəyir yenə köhnə yaralar,
Torpaqlar azad olsa bu yaralar sağalar.
Şəhidlərin qanıyla suvarıldı bu torpaq,
Neçə-neçə igidlər yetişdirdi bu torpaq.

Naiıləyəm-hər Şəhid sanıram öz balamdır,
Hər ananın fəryadı mənim könül yaramdır.
Bu hisslər bir şeirə, nə də kitaba sığmaz,
Nə qədər ki, Şəhid var, qəlb yarası sağalmaz.





## RAYA HAQVERDİYEVA

Haqverdiyeva Raya Qənbər qızı 14 iyun 1965-ci ildə Qərbi Azərbaycanda anadan olub. Nəvəsi Ayxana həsr etdiyi "Ayxanım, kədərim, qəmim" kitabının müəllifidir. Şeirləri "Günəşin Nuru 3" antalogiyasında dərc olunub.

## Qarabağ Azərbaycandır!

Ay naxələf qonşular, ay duzsuzlar, nankorlar,
Tökülsün burnunuzdan Vətənimin neməti.
Doğulduğun torpağa Vətən deməliydin sən,
Axı zatı qırıqsan, bunu hardan biləsən?
Addım atıb gəzdiyin torpağı bombaladın,
Şəhid verən ananı sən çox vaxtsız qocaltdın.
Ay nankor , bədnam qonşu gəlsin sənin gözündən,
Vətənimin çörəyi, duzu, suyu, havası.
Cənnət tək gözəl yeri viranəyə çevirdin.
Ata-ana öldürdün neçə bala itirdin,
Zəngilan, Şuşa, Xocalı, Laçın, Ağdam Qubadlı,
Ağdərənin yaylağı Şəhidlərimin qanı.
Kəlbəcərin torpağı, yeraltı yataqları,
Füzulinin ilk səsi, ana Vətən kəlməsi.
Baxıb dilə gəlibdi Vətənin hər bölgəsi,
Deyir : - qeyrət vaxtıdı ,durun , gəlin haraya.
İkiüzlü düşmənin ayağını qoparın,
Təlxəklik elədiyi saxta qəlbi çıxarın.
Duz da səpin yerinə, acısı heç dinməsin,
Bütün aləm gülsə də, onlar heç vaxt gülməsin.
Nankor olduqları, üçün utansınlar hamıdan,
Onları təhqir edən dövlətlərdən,dünyadan.
Füzulinin ruhundan, Xanın şikəstəsindən,
Bülbülün şux səsindən Xocalı naləsindən.
Utansınlar dığalar böyüdən o analar,
Bizlə dostluq, qonşuluq eləyən o yaltaqlar.
Utansınlar onlara göstərilən qayğıdan,
Onları insan sayıb verdiyimiz salamdan.
İnsan saydıq, yaşadıq birlikdə neçə illər,
Demək onlar vəhşiymiş, heç insan deyilmişlər.
Uşaq, qoca saymayıb vəhşilik elədilər,
Nə qədər qız - gəlini əsirə çevirdilər.



Qədim abidələri söküb viran etdilər,
Milli tariximizi Qarabağdan sildilər.
Bizim doğma torpağa oğru tək soxuldular,
O qatillər , canilər, azğınlaşmış quduzlar.
Niyə utanmırsınız ey ermeni quldurlar?!
Bu torpaq yetişdirib çox qeyretli analar.
Onlardan doğulubdu Mübarizlər, Poladlar.
Güclü sinələrini səngərə çevirdilər,
Ana Vətən yolunda canlarından keçdilər.
Bu torpağın hər daşı, hər qayası, hər dağı,
Bizə candan əzizdir , çünki bura Vətəndi.
Zəfərlər qazanacaq, yeni tarix yazacaq
Ordumuzun gücünü gənc nəsil oxuyacaq.
Tarixə yazılacaq ordumuzun qüdrəti
Tarixə yazılacaq Qarabağın haqq səsi.
Bu torpağın bax belə igid oğulları var,
Bu millət göstərəcək sizə öz həddinizi.
Soxacaq gözünüzə sizin sərhədinizi,
Bilməyənlər de bilsin bu torpaqlar bizimdir
Qarabağ Azərbaycandır , Qarabağ qəlbimizdir!!!

## Tarix yazan sərkərdə

Ali Baş Komandanın özü də bir əsgərdir,
Ulu Öndər xalqı üçün onu yetişdiribdi.
Öz xalqıyla fəxr edir, ordusuna inanır
Azərbaycan deyəndə qəlbi köksünə sığmır.

Getdiyimiz bax bu yol, haqq-ədalət yoludur,
İndi bizi inamla qələbəylə aparır.
Böyük serkerdemizin ağıllı siyasəti,
Qazandırıbdı bizə bu şanlı qələbəni.

Bizim igid oğullar yumruq tək birləşdilər,
Ali Baş Komandanın əmrini bəyəndilər.
Ruhlarını gül kimi bu torpağa əkdilər.
Üzərinə su deyil qanlarını tökdülər,

Buna görə bu torpaq qələbələr qazandı.
Həsrət çəkən gözlərə gülüş, sevinc paylandı.
Vətənimi verməyərəm, deyib bizim əsgərlər,
Hər qarış torpağına can veribdi şəhidlər.

Şəhidlik uca addır, ondan böyük ad olmaz,
Şəhidlik uca addır, hər kəsə qismət olmaz.
Torpaq şəhid verməsə, ora Vətən sayılmaz,
Torpağın nə qiyməti, nə də dəyəri olmaz.

Ana Vətən yolunda analar dilə gəldi.
Analar öz canından pay ayırıb göndərdi,
İgid oğullarına xeyir-dua verdilər,
Fəxr edib, sevinərək orduya göndərdilər.

Müstəqil Azərbaycan şanıyla, şöhrətiylə,
Addımlayır çox güclü dövlətlərlə bir yerdə.
Bax budur, xalqımızın böyüklüyü, birliyi,
Bax budur, xalqımızın tarixi, gerçəkliyi.

## Azərbaycan əsgəri

Nərə çəkdin titrədi, yer, göy bir-birinə dəydi.
Çox güclü iradəndən ermənilər gizləndi.
Yerlə yeksan elədin o quduz caniləri,
Biz sənlə fəxr edirik, Azərbaycan əsgəri!



Düşmənlər özlərini çox güclü görmüşdülər,
Doğma yurdlarımıza sahiblik etmişdilər.
Yadlarına düşmürdü Vətənin igidləri,
Biz sənlə fəxr edirik, Azərbaycan əsgəri!

Vətənə bağlılığınız bəyan etdi hər yana
Bu torpağa sevginiz, sizi tanıtdı dünyaya.
Ey qəhrəman əsgərlər, ey igidlər, ərənlər,
Biz sənlə fəxr edirik, Azərbaycan əsgəri!

Azğın düşmən qudurub sərvətini talayan,
Yurd-yuvası dağılıb sahibsiz viran qalan.
Çöllər, kəndlər, şəhərlər, sevinib dilə gəlir,
Biz sənlə fəxr edirik, Azərbaycan əsgəri!

Əsarətdən qurtaran torpaq da həvəslənir,
Şəhidlərin ruhu da buna baxıb sevinir.
Həsrətdən yorğun düşən Xarı bülbül səslənir,
Biz sənlə fəxr edirik, Azərbaycan əsgəri!

Dalğalanan bayraqlar, tanklar, toplar, maşınlar,
Vətənimin köksündə qazılan o yarğanlar.
Hamısı qəhərlənir, sevinir dilə gəlir,
Biz sənlə fəxr edirik, Azərbaycan əsgəri!

Xudafərin körpüsü, min illərin carçısı,
Şuşadı Qarabağın vuran qəlbi, baş tacı.
Laçındır bu yerlərin sehirlənmiş açarı,
Biz sənlə fəxr edirik, Azərbaycan əsgəri!

## Şəhid məzarı

Bir qəbir önündə baş əyib durdum,
Hönkürüb ağladım ondan soruşdum.
Harada sən şəhid olmusan bala?
Söylədi, mən səhid oldum Şuşada.

Dedim ki, sən hələ gəncsən, cavansan,
Arzuna çatmadın, axı nakamsan.
Xəfif təbəssümlə sanki söylədi:
Şəhidlər yaşayır, onlar ölmədi.

"Şəhid məzarıdı" bu nurlu məkan.
Qürurla vüqarla məğrur dayanan.
Yummur gözlərini, birdən yataram
Yurdumu yağıdan qoruyammaram.

Siz ey qəhrəmanlar, siz ey şəhidlər,
Sizə minnətdarıq, bizlər nə qədər.
Salavat göndərib, rəhmət deyirik,
Ruhunuz önündə biz baş əyirik!

## Xocalı fəryadı

Xocalını unutmayaq,
Xocalı qan yaddaşımız.
Orda ölüb, donanlar,
Bizim bacı, qardaşımız.

Heç zaman unutmuruq,
O dəhşətli gecəni.
Vəhşiliklə üzləşən,
Donan o körpələri.



İyirmi altı fevralda,
Gözlənilməz bir anda.
Xocalının üstünə,
Qar yox yağırdı güllə.

Raketlər avtomatlar,
Şəhərə atılırdı.
Şəhər odlar içində,
Tonqal kimi yanırdı.

Əli yalın insanlar,
Çox çarəsiz qaldılar.
Canlarını qurtarıb,
Qaçmağa çalışdılar.

Ağappaq qarlar üstə,
Töküldü qan, axdı qan.
Sanki qarlı meşədə,
Lalə açdı durmadan.

Düşmən kimi şaxta da,
Yaman qəddarlaşmışdı.
Nə qədər qaçsalarda,
Onlardan yapışmışdı.

Bu şaxtada insanlar,
Meşələrdə azdılar.
Gecə soyuq yol uzaq,
Ayaqyalın və çılpaq.

Ah nalə göyə qalxdı,
Dünya dinmədi baxdı.
Kiminin arzuları,
Kiminin doğmaları.

Əsarətdə qaldılar,
Daha qayıtmadılar.
Nə qədər qız, gəlinin,
Namusu tapdalandı.

Nə qədər sərvətimiz,
Torpağımız talandı.
Dünya kor tək baxırdı,
Soyqırıma qırğına.

Azərbaycan xalqının,
Günahsız bu qanına.
Xocalı qıyamına!
Xocalı fəryadına!





## RƏNA MƏRZİLİ

1975-ci ildə Ağdam rayon Mərzili kəndində anadan olub. 10 kitab müəllifidir. AYB - nin və AJ B - nin üzvüdür. 2019-cu il oktyabrın 6-sı "Xan Qızı Natəvan" ədəbi məclisini yaradıb.

"Qızıl Qələm", "Xan qızı" – Natəvan mediya mükafatçısıdır. 2017-ci ildə Prezident təqaüdçüsü olub. Şeirləri bir çox antologiyalarda, və mətbu orqanlarda dərc olunub.

## Unudulmaz heç zaman

Məhəmməd davamçısı, qanında Əli qanı,
Azərbaycan oğlunu, tanı ey dünya, tanı!
Zəfərə səsləyirdi, şərəfiylə cahanı,
Polad Həşimov kimdir? – Koroğlu davamçısı,
Unudulmaz heç zaman Azərbaycan balası.

Əməli naxış-naxış, ürəyi rəhimliydi,
Özü boyda səxavət, özü boyda sirriydi.
Əsgərlərin ümidi, ocağıydı, piriydi...
Cənnətdə müjdələnələr, haqqa çatar sədası,
Unudulmaz heç zaman Azərbaycan balası.

Allahverdi Bağırov, Şirin Mirzəyevimiz,
Altı min şəhid vermiş, Ağdam bizim evimiz.
Dünyaya haray saldı igid Mübarizimiz,
Tovuzda şəhid olmuş, Xəyyam növcahan yası,
Unudulmaz heç zaman, Azərbaycan balası.

Bu dünya, həm o dünya sadiq qonşuluğuna,
Polkovnik İlqar dözməz, Polad ayrılığına.
Qoşa addım atdılar, Nuhun sirli dağına,
Dostluğa, sədaqətə baş əyər ruh dünyası,
Unudulmaz heç zaman, Azərbaycan balası.

Qanını yerdə qoymaz ərənlərim, türklərim!
Qarabağsız yaradır, sevdalı ürəklərim.
Ay Allah, daha bəsdir, mənim bu çəkdiklərim
Gəlib tutsun əlimdən, haray Türkün dünyası,
Unudulmaz heç zaman Azərbaycan balası.

Gilə-gilə gözümdən, yaşlar ürəyə axdı,
Anası, "balam"- dedi, yandı ürək darıxdı.
Peyğəmbər övladına, mələklər şirin baxdı,
Rəna, haqdan sağalar, şəhidlərin yarası,
Unudulmaz heç zaman Azərbaycan balası.



## Qərib

Sənə necə ağı deyim?!
Toyu tutulmayan Qərib.
Söndürdü çirağı deyim,
El yalvarır oyan, Qərib.

Yanar Göydə, yanar Yerdə,
Mələklər ağlar bu dərdə.
Ruhun qalxa pərdə- pərdə,
Allah sənə həyan, Qərib.

Az ağlayın məni ana,
Can verdim Azərbaycana.
Ruhum nur səpər cahana
Deməyin ki, dayan, Qərib.

## Qarabağ Azərbaycandır!

Sadə dildə gözəl bir söz
Bir ürəkdi, ikidə göz
Otuz ilə yaxındı, söz
Zülmətdən doğulan dandı
Qarabağ Azərbaycandır!

Mirvari tək, düzər hamı
Əldə çıraq, gəzər hamı
Vətən, səni bəzər hamı.
Bulağımın gözü qandı
Qarabağ Azərbaycandır!

Uzun sözün lap qısası
Alındı Vətən qisası
Rəna Allahın sevdası
Ağdam, Şuşa, Zəngilanlı
Qarabağ Azərbaycandır!

## Layla şəhidim layla

Ruhun Allah yanında
Layla şəhidim layla.
Bu gün ağlar cahanda
Layla, şəhidim, layla..

Can vermisən torpağa
Nəfəssən Qarabağa.
Millət qalxıb ayağa
Layla, şəhidim, layla..

Mələk sığallar səni
Soraqlayar yar səni.
Unutmaz diyar səni
Layla, şəhidim, layla..

Kərbəla şəhidimsən
Həm Göyüm, Həm yerimsən.
Sən, əbədi dirimsən.
Layla, şəhidim, layla..

Rəna yanar ahından
Bu əbədi yuxundan.
Yağı öldü qorxundan
Layla, şəhidim, layla..



## Türküm mənim

Allahın gizli səsi
Bəndə var görküm mənim.
Azərbaycan tək deyil,
Haqq deyən hakim mənim.
Ər oğlu Türküm mənim.

Otuz yox yüz il keçə
Yurdda qalmaz yad sərçə.
Məhv olar bircə- bircə
Koroğlu köküm mənim
Türk oğlu Türküm mənim.

Yerlə yeksan yuvamız,
Güllə-boran havamız
Babək, Nəbi babamız,
Övlüya ilkim mənim,
Ər oğlu Türküm mənim.

Qaradan ağ sökülər,
Nərəmlə dağ sökülər,
Oyyy Qarabağ sökülər
Babamdan mülküm mənim,
Ər oğlu türküm mənim!

Rəna ağlasın, gülsün
Qıymır oğullar ölsün
Göylərdən səda gəlsin
Ağırdır yüküm mənim
Ər oğlu Türküm mənim.



## SOLMAZ ELQIZI

Əfəndiyeva Solmaz Ədhəm qızı (Solmaz Elqızı) 1964-cü ilin mart ayında Qax rayonunun İlisu kəndində anadan olub.2005-ci ilin dekabr ayından Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Üç kitabın-("İlisudan gələn səslər"-2004-ci ildə çap olunub, "Ulu Tanrıdandır bu şeir payım"-2008-ci ildə çap olunub."Dünyaya gəlmişik sevilmək üçün"-2019-cu ildə işıq üzü görüb.) müəllifidir. "Azərbaycan ədəbiyyatında qazandığı uğurlarına görə" adlı diplomun, "Vicdanlı Qələm", "Cəsarətli Qələm" diplomlarının sahibidir. 2015-ci ilin may ayının 22-də Uluslararası Avrasiya Şairləri Antologiyasının "Katılım Belgesi" diplomu ilə təltif olunub. 2020-ci ildən Prezident Təqaüdçüsüdür.



Hal-hazırda Qax Rayon Mərkəzləşdirilmiş Kitabxanasında "Mütaliə klubu"nun rəhbəridir.

### Xalqın sevimlisi

Vətən sevgisiylə qəlbin alışdı,
Hər yerdə insanlar səndən danışdı.
Nə tez taleyinə qara qarışdı?!
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Söylə səsindəki şirinlik nədir?
Bu Vətənə olan sədaqətindir.
Allahın verdiyi əmanətindir,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Səsində qəlbinin kövrəkliyi var,
Cismində ruhunun göyçəkliyi var.
İsmində Allahın gerçəkliyi var,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Düşmənə bu səslə oxudun meydan,
Bağlanar adına hələ çox dastan.
Sevirik biz səni ürəkdən, candan,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

İyirmi iki yaş belə nə imiş?
Qəlbdə arzuların hələ çox imiş.
Birisi var imiş, biri yox imiş,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Sən nağıla döndün, dastana döndün,
Hər kəsin könlünə əbədi köçdün.
Belə sevilməyi sən özün seçdin,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Elə sanma sizi unudarıq biz,
Adına əsərlər yaradarıq biz.
Bir vurar sizinlə bizim qəlbimiz,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Xuda yar olubdu sənə hər zaman,
Rahat uyu balam, olma pərişan.
Bəxş etdin Vətənə böyük şöhrət-şan,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Əbədi ölməzlik yaşayanımsan,
Köksündə şücaət daşıyanımsan.
Sevdiyin torpağa qovuşanımsan,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!

Uca tutacağıq adını hər an,
İgidim rahat yat, olma nigaran.
Sizə olacaqdır mərd xalqım həyan,
Əziz bir oğulsan igid, bəxtiyar,
Xalqın sevimlisi oldun Xudayar!



## Təki Vətən sağ, olsun!

*(Qax rayonunun İlisu kəndində doğulub boya-başa çatan Nihad Mövlüd oğlu Abbasova ithaf olunur)*

Bilmirəm nə yazım, mən necə deyim?
Heç sənə yaraşmır bu vaxtsız ölüm.
Bu qəfil gedişə ağlayır elim,
Ancaq bu kəlməni söyləyir dilim,
Təki Vətən Sağ Olsun!

Ötüşmür nə ayım, nə də ki, ilim,
Açılarmı sənsiz çiçəyim, gülüm?
Çox çətin döyünür sinəmdə qəlbim,
Ancaq bu kəlməni söyləyir dilim,
Təki Vətən Sağ Olsun!

Ən böyük arzumdun, böyük istəyim,
Qəlb sirdaşım idin, könül həmdəmim.
Şənsiz yaşamağı necə öyrənim?
Ancaq bu kəlməni söyləyir dilim,
Təki Vətən Sağ Olsun!

Baxışı mənalım, ay gözəl rəqslim,
Ay mətin duruşlum, ay dürüst sözlüm.
Ay şirin söhbətlim, ay qara gözlüm,
Ancaq bu kəlməni söyləyir dilim,
Təki Vətən Sağ Olsun!

Necə yaşayım mən, sənsiz neyləyim?
Dərdimi-sərimi kimə söyləyim?
İzn ver yanına qoy mən də gəlim,
Ancaq bu kəlməni söyləyir dilim,
Təki Vətən Sağ Olsun!

## Allahım sən bizi çəkmə sınağa

Hər dəfə gələndə Şəhid xəbəri,
Ağlayar yurdumun kəndi, şəhəri.
Zülmətə qərq olar elin səhəri,
Aləm nərə çəkər, qalxar ayağa,
Allahım, sən bizi çəkmə sınağa.

Ana naləsindən ürəklər sızlar,
Bəxtinə kor deyər gəlinlər, qızlar.
Qış üstə qış gələr, açılmaz yazlar,
Aləm nərə çəkər, qalxar ayağa,
Allahım, sən bizi çəkmə sınağa.

Neçə ailənin sönər çırağı,
Əgər tez-tez gəlsə, şəhid sorağı.
İnsanlar yaşayar ölü sayağı,
Aləm nərə çəkər, qalxar ayağa,
Allahım, sən bizi çəkmə sınağa.

Qəlbləri incidər ata nisgili,
Saralar və solar çiçəyi, gülü.
Atasız uşağın lal olar dili,
Aləm nərə çəkər, qalxar ayağa,
Allahım, sən bizi çəkmə sınağa.

Ölməzlik qazanar, Şəhid Oğullar,
Analar doğubdu İgid Oğullar.
Vətənə tac olar Belə Oğullar,
Aləm nərə çəkər, qalxar ayağa,
Allahım, sən bizi çəkmə sınağa.

Bəxş etdilər bizə Böyük Zəfəri,
Daha eşitməyək Şəhid xəbəri.
Açılsın yurdumun aydın səhəri,
Aləm nərə çəkər, qalxar ayağa,
Allahım, sən bizi çəkmə sınağa.



## Şəhid balası

(II-ci Qarabağ müharibəsinin qəhrəmanlarından biri, Qax rayonunun Cəlayir kəndindən olan Şəhid Zabitimiz Qorxmaz Əlizadənin adını özünün verdiyi Fateh oğlunun dünyaya gəlişinə)

Şəhid ocağının igid balası,
Körpə Fateh göz açdı bu dünyaya.
Qorxmaz atasından qürur duyaraq,
İgid kimi işıq saçdı dünyaya.

Şəhid atasını əvəz edəcək,
Arxa olacaqdır o anasına.
Taleyin əlindən ağrı çəksə də,
O, bir tac olacaq öz dünyasına.

Atası Qorxmazın davamçısı tək,
Böyüyüb şərəfli yolun seçəcək.
Bu adı atası veribdi ona,
Bu yolda o əsgər andın içəcək.

Layiqli oğul tək Azərbaycanın,
Hər zaman adını yaşadacaqdır.
O Fateh adıyla, Qorxmaz adını,
Daim zirvələrdə daşıyacaqdır.

## İlisu

Doğulmuşam uca dağlar qoynunda,
Şan-şöhrətim, şərəfimdi İlisu.
Bil, xainlik olmayıbdı canında,
Tarix boyu mərd dayanıb İLİSU.

Sultanların qanı vardır qanında,
Alimlərin hörməti var adında.
Qalacaqdır tarixin yaddaşında,
Sultan, alim, şair kimi İLİSU.

Sıralanıb neçə-neçə məhəllə,
Qaradolaq, Bacar, Dabağ məhəllə.
Bucaq məhlə, Səngər məhlə var hələ,
Yumruq kimi birləşibdi İLİSU.

Tovlatala əsrlərlə qoşadır,
Ulu Körpü tarixini yaşadır.
Sumu Qala dünyaya tamaşadır,
De, harda var belə qüdrət İLİSU?

Hamamçayı əsrlərin haqq yeri,
Ramramayı qonaqların şah yeri.
Mənim kəndim bil, tanrının and yeri,
Harda vardır bu əzəmət İLİSU?

İnsanları zəhmətkeşdi əzəldən,
Zəhmət ilə yaşayıblar ta qədimdən, əzəldən.
Qız-gəlini çox gözəldi hər bəzəkli gözəldən,
De, kimdə var bu ləyaqət İLİSU.

Pay ummadı bir kimsədən heç zaman,
Tanrım deyib ey İlisum şən dayan.
Əsrlərin yadigarı bil ki, sənsən, mərd dayan,
Bəsdir sənə bu şan-şöhrət İLİSU,
Bəsdir sənə bu şan-şöhrət İLİSU.





## ŞƏFƏQ ƏZİZ

Əhədzadə Şəfəq Mirbaba qızı 16 fevral, 1979-cu ildə Şirvan şəhərində anadan olub

Azərbaycan Texniki Universitetinin "Elektrotexnika" fakültəsini bitirib. Magistatura pilləsini qırmızı diplomla bitirdikdən sonra AMEA Fizika İnstitutuna işə qəbul olub, 2005-ci ildə isə AMEA-nın dissertantı olaraq öz elmi fəaliyyətini davam etdirib. 27 oktyabr 2010-cu ildə dissertasiya işini müdafiə edərək fizika üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. O, 2016- ci ildə dosent elmi dərəcəsi almaq üçün sənədlərini Ali Attestasiya Kommisiyasına təqdim edərək, 2017-ci ildə dosent elmi dərəcəsi alıb. Şəfəq xanım Beynəlxalq konfransların iştirakçısı olmuş, dəfələrlə elmi layihələrdə

iştirak etmiş, 2005-ci ildə Fizika İnstitutunda "Gənc alim və aspirantların dissertasiya mövzuları" müsabiqəsinin, həmçinin 2009- cu idə Ukraynada keçirilən STCU qrant layihəsinin və 2012- ci ildə Azərbaycan Respublikası Elmin İnkişaf Fondu tərəfindən keçirilmiş elmi layihənin qalibi olub. Şəfəq xanım 40-a yaxın yerli və xarici jurnallarda çap olunmuş elmi əsərlərin və 2 patentin müəllifidir. Hal-hazırda isə AMEA Fizika İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır.

## Harada qaldı?

Dardadır Vətənim nə zaman imiş,
Azadlıq sən demə qan uman imiş.
Düşmən nə amansız, nə yaman imiş,
O torpaq, o ellər harada qaldı?

Hanı bulaqların, suyun şəfası?
Dağların, daşların təmiz havası?
Ağdamın, Şuşanın gözəl səfası?
Bunlar düşmənlərə, yadamı qaldı?

Hardan biləydik ki, gələrik gözə,
Düşüb ağızlara, dönüb biz sözə.
Düşmənlə, yağıyla durub üz-üzə,
Vuruşan igidlər dardamı qaldı?

Yamanca sınadı amansız fələk,
Gəldilər bizlərə min cürə kələk.
Dostlardan, qardaşdan gözlənən kömək
Gəlib yetişmədi, yoldamı qaldı?

Bu ataş bizləri yandırıb yaxdı,
Günahsız-günahsız çox qanlar axdı.
Vətənin taleyi, Vətənin baxtı,
Şairə, şeirə, sözəmi qaldı?



## Qarabağ Azərbaycandır!

Artıq yetişib zaman,
Düşmənə yoxdur aman.
Dünyaya etdik bəyan,
Davamız qana-qandır,
Qarabağ Azərbaycandır!

Sən, ey mənfur erməni,
Yaxşı dinlə cümləni.
Həzm elə bu kəlməni,
Qanmayanı get qandır,
Qarabağ Azərbaycandır!

Ox çıxıbdır kamandan,
Qılıncımız qınından.
Cənab ali komandan,
Gözləyirik haçandır,
Qarabağ Azərbaycandır!

Bölünmədik ikiyə,
Qardaş gəldi hay-küyə.
Azərbaycan-Türkiyə,
Bir ürək, iki candır,
Qarabağ Azərbaycandır!

Sevincdən ağlar gözlər,
Sayəndə güldü üzlər.
Söylədiyin bu sözlər,
Sinəmizdə nişandır,
Qarabağ Azərbaycandır!

Bayrağım dağlarımda,
Elimdə, torpağımda.
İndi Qarabağımda,
Məşəlimizi yandır,
Qarabağ Azərbaycandır!

## Azərbaycanım!

Bu gün fəxarətlə yaşayırıq biz,
Sevinir uşaqlar, qoca, gəncimiz,
Tarixə sığmayır bu sevincimiz.
Qələbən mübarək, ürəyim, canım,
Sən zəfər çalmısan, Azərbaycanım!

Heç bir zaman əlimizi üzmədik,
Otuz il gözlədik, amma bezmədik.
Dözümlü dedilər, daha dözmədik,
Qələbən mübarək, ürəyim, canım,
Sən zəfər çalmısan, Azərbaycanım!

Təslim oldu, bizə düşmənin özü,
Birinə qurbandır onların yüzü.
Qayıtmışıq Şuşa, ay Cıdır düzü,
Qələbən mübarək, ürəyim, canım,
Sən zəfər çalmısan, Azərbaycanım!

Al əlinə artıq beldən, kürəkdən,
Pambıq əkək, yapaq isti çörəkdən.
Bu sözləri mən deyirəm ürəkdən,
Qələbən mübarək, ürəyim, canım,
Sən zəfər çalmısan, Azərbaycanım!

## Gözünüz aydın

Qələbə şeirini yazıram sizə,
Qarışsın sevincim sevincinizə.
Köçkünlər! Yığışın öz evinizə,
Obanıza, yuvanıza qayıdın,
Qarabağ bizimdir, gözünüz aydın!



Dalğalanır, o müqəddəs bayrağım,
Sevinir dağlarım, daşım, torpağım.
Bağladıq düşmənin əlin, ayağın.
Kəsilib nəfəsi mənfurun, yadın,
Qarabağ bizimdir, gözünüz aydın!

Ödəyib haqqını öz canlarıyla,
Şəhidlər yudular al qanlarıyla.
Onlar ucaldılar öz şanlarıyla,
Bil, yerdə qalmadı ana, fəryadın,
Qarabağ bizimdir, gözünüz aydın!

Rəhbərim, sözünün üstündə qaldın,
Düşməndən torpağı, qoparıb aldın.
Vətənim, yenə də sən zəfər çaldın!
Tarixdə qalacaq qəhrəman adın,
Qarabağ bizimdir, gözünüz aydın!

Boğazda yox artıq qəhərlərimiz,
Azad oldu əsir şəhərlərimiz.
Nə gözəl açılır səhərlərimiz,
Salam Laçın, salam Şuşa, günaydın!
Qarabağ bizimdir gözünüz aydın!

## Qaç erməni

Müzəffərdir ordumuz,
Azad olur yurdumuz.
Məşhurdur "Boz Qurdumuz",
Salmışıq biz qaçaqaç,
Qaç erməni, durma qaç!

Zəif, qorxaq ordunun,
İç üzünü haydı aç.
Dayanma, öz yurdunun
Ətrafına zəhər saç,
Qaç erməni, durma qaç!

Üstünə gəlir, dayan!
Bizim dron, "İTİ QOVAN"
Artıq bizimdir meydan.
İndi bizdən gəl baş aç,
Qaç erməni, durma qaç!

Zaman bizim zamandır,
Halın deyən yamandır,
Beynin, başın dumandır.
Kəllənə çək böyük xaç,
Qaç erməni, durma qaç!

Türkiyənin haqq səsi,
Səninçün həyəcandır.
Qorxudubdur hər kəsi,
Qarabağ Azərbaycandır!
Zəfər bizim olacaq!
Qaç erməni, durma qaç!





## ŞƏLALƏ AĞAYEVA

Ağayeva Şəlalə Nadir qızı 1979-cu il mayın 23-ü Cəbrayıl rayonunda anadan olub. "Bir fincan çay, bir qələm, bir də düşüncələrim", " Uşaqlar, sizə sözüm var" ve "General həyatı" kitablarının müəllifidir. Həm nəzm, həm də nəsr əsərlər yazır. Ali təhsillidir. Hal-hazırda Bakı şəhəri 316 saylı məktəbdə müəllimə işləyir.

## Əsgərim

Canavar əsgərim, pələng əsgərim,
Ay mənim şir ürəkli, nəhəng əsgərim.
Vətəni qoruyan "Vətən" əsgərim
Çiynində silahın, əlində bayraq,
Hər daşın, qayanın üstündə sipər,
Vüqarla dayanan, duran əsgərim.
Nərəsi göylərə qədər ucalan
Düşmənin canına vəlvələ salan
Siçovullar kimi əzən əsgərim.
Saxtakar erməni, çıx Vətənimdən,
Mənim əsgərimə toxunma, dəymə
Mundar ayağını vurma, tərpənmə!
Toxunsan yanarsan, peşman olarsan.
Düşmənin ayağın kəsən əsgərim
Anasın ağladıb qıran əsgərim.
Mənim hər şəhidim qartaldır- qartal,
Tək Vətən eşqidir onlarda amal.
Mənim əsgərimin, şəhidlərimin,
Dağ kimi dayağı olan xalqı var,
Ey düşmən anla ki sənə dünya dar.
Səsinə səs verib qatan əsgərim,
Şərəf dastanları yazan əsgərim.
Canavar əsgərim, pələng əsgərim
Mənim şir ürəkli nəhəng əsgərim.

## Cəbrayılım

Bu gecə yuxuma gəlmişdin yenə,
Nədənsə sən küskün dəydin gözümə.
Nə qədər nazınla oynasam da mən,
Heç fikir vermədin mənim sözümə.



Deyəsən gözündə nəm gördüm sənin,
Küsmüş bənizində qəm gördüm sənin,
Yaralı qəlbində çən gördüm sənin,
Mən necə təskinlik verim özümə?!

Müzəffər ordumuz, Cəbrayıldan keç
Sən yağı düşməni alaq kimi biç.
Kaş düşmən ayağı dəyməyəydi heç
Əsir torpağımda qalan izimə.

Uzaqdan lalələr üzümə güldü,
Yanağa süzülən həsrətli seldi.
Gördüm torpağın da yanıbdı, küldü
Axır döyəcləyib vurdum dizimə.

Bu nə ayrılıqdır, bu nə hicrandır?!
Allah, düşməni də mənim tək yandır.
Düşmənin əzabı elə yamandır,
Mən həsrət qalmışam Cıdır düzümə.

## Quşa dönərsəm

Bir gün qanadlanıb quşa dönərsəm,
İlk gələcək qapım sən olacaqsan.
Ucuq-sökük evlər, kül olmuş torpaq
Məni ilk qoynuna sən alacaqsan.

Havan da, suyun da sevinəcəkdir,
Qanayan yaran da sevinəcəkdir,
Dağın da, dərən də sevinəcəkdir,
Bağrına basaraq ağlayacaqsan.

## Gətir

Ay əsən küləklər, əsən küləklər,
Mənə Vətənimin havasın yetir.
Toz-torpağa qatıb az-az da olsa
Mənə Vətənimin tozundan gətir.

Ay yağan yağışlar, yağan yağışlar,
Sizə yalvarıram, siz Allah nolar
Duysam bircə anda gözlərim dolar
Mənə Vətənimin suyundan gətir.

Açılıb əllərim yalvarır sənə,
Ay Allah, o günü yaşat sən mənə
Yığım ailəmi dönüm Vətənə,
Daha bu həsrəti sən özün bitir.

## Şəhid

Şəhid, səni doğan anaya qurban.
Əlləri göylərdə dua istəyən
Nigaran baxışlı bacına qurban.
Əyilmiş qəddini dik tutmaq üçün
Üçrəngli bayrağı köksünə sıxan
Qoxunu qoxlayan atana qurban.
Bəlkə də olmamış toyuna qurban
Olubsa...
O qara örpəkli qadına...
Göz yaşın gizlədən yarına qurban.
Yetimlik yazılan payına qurban
Dalınca ağlayan elin, obanın
Baharına qurban, yayına qurban.
Şəhid, sənin vaxtsız qana boyanmış
Al güllə bəzəbnmiş canına qurban.





## ŞƏLALƏ ŞƏFƏQ

Şəlalə Əsgərova 1 iyul 1968-ci ildə Şərur rayonunun Qarabağlar kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Naxçıvan DPU-nə qəbul olub. Hal-hazırda Bakı şəhərində yaşayır. 28 ildir 191 nömrəli məktəbdə müəllim işləyir. İlk dəfə şeirləri "Günəşin Nuru 4" antologiyasında dərc olunub.

## Azərbaycan əsgəri

Ey Vətən oğulları, sizə qurban canımız,
Qalmayacaq yağıda bir qarış torpağımız,
Tezliklə ucalacaq Şuşada bayrağımız,
Qanınla yazılacaq bu millətin zəfəri,
Azərbaycan əsgəri!

"Ya qələbə, ya ölüm!" budur şüarın sənin,
Ümidi, pənahısan, dar günündə Vətənin.
Səninlə fəxr eyləyir sevgilin, xalqın, elin,
İgidim, al qisasın, unutma şəhidləri,
Azərbaycan əsgəri!

Babəkin, Koroğlunun hünəri var canında,
Qanına hopub axan, qeyrətdir damarında,
Aman vermə düşmənə, əz başını anında,
Xilas et Xocalını, Ağdamı, Kəlbəcəri,
Azərbaycan əsgəri!

Düşmənə göz dağıdır məğrurluğun, qürurun,
Alınmaz qalasısan, sipərisən bu yurdun.
Şərəfin, namusundur, xidmət etdiyin ordun,
İnşallah tez zamanda gəlsin zəfər xəbəri,
Azərbaycan əsgəri!

## Qürurumsan, Şəhidim

Vətən məhəbbətini hər şeydən uca tutdun,
Ananı, sevgilini min dillə ovundurdun.
Ölümün qarşısında, əyilmədin, dik durdun,
Səninlə fəth olundu ən uca zirvələrim,
Ruhuna canım qurban, qürurumsan, şəhidim!



Hansı sözləri düzüm, layiq olsun adına,
İgidliklə atıldın ər, hünər meydanına,
İnildəyən torpağın yetişdin imdadına,
Ağlamıram, ürəyim olsa da didim-didim,
Ruhuna canım qurban, qürurumsan, şəhidim!

Uğrunda candan keçən oğulların var, Vətən,
Hər qarış torpağını şərəfiylə tutub tən!
Azadlıq toxumunu səpib Cıdır düzündə,
Suvarsa da qanıyla, dönməz geri igidim,
Ruhuna canım qurban, qürurumsan, Şəhidim!

Füzulidə, Şuşada tarix yazdı hünərin,
Ölməzlik zirvəsinə ucalıb döndün geri,
Oldun bütün xalqının igid oğlu, and yeri,
Vətən üçün ölməsən, vətən dirilməz, bildim,
Ruhuna canım qurban, qürurumsan, şəhidim!

## Şəhidim

Qıydı namərd düşmən sənə,
Güllə tuş gəldi sinənə.
Ürəyim, canım qurbandır,
Vətənin hər şəhidinə.

Doğması oldun hər yadın,
Dillərdə dastandır adın.
Şəhadətin mübarəkdir,
Zirvələrdədir məqamın.

Torpaq uğrunda verib can,
Neçə igid getdi qurban.
Rahat uyu, şəhid balam,
Yerdə qalmayacaq bu qan.

Saçlarını yoldu anan,
Can, ay bacım, məğrur dayan!
Bayrağımız son libasın,
Sən cənnətə yaraşıqsan.

Hər şəhid şərəfdir, şandır,
Canımdan ayrılan candır.
Bütün dünya duysun artıq,
Qarabağ Azərbaycandır!

## Cənnət, şəhidin gəlir...

Yenə hamı nigaran,
Ürəklərə dərd gəlir.
Canımızdan can gedib,
Cəbhədən şəhid gəlir.

Başın sağ olsun Vətən,
Uğrunda ölən gəlir.
Cəhənnəmi adıyla
Çarmıxa çəkən gəlir.

Vətənin taleyini
Düşünüb öz canıyla.
Cənnəti al qanıyla,
Nura qərq edən gəlir.

Dik dur şəhid atası,
Dərdinə qurban olum.
Milyonlar tutur yasın,
Qəlblərə köçən gəlir.



Gördüm şəhid balasın,
İçimi parçaladı.
Ata kimi getmişdi,
Şəhid, mərd ərən gəlir.

Qurban şəhid adına,
Dəyərini el bilir.
Cənnət, al ağuşuna,
Gül-çiçək düz yoluna,
Yenə şəhidin gəlir...

## Bayatılar

Əzizinəm, mərdanə,
İgid lazım meydana.
Mərd oğullar böyüdüb,
Ər qeyrətli, mərd ana.

Bu gələn karvan nədir,
Yolu hansı yönədir?
Şəhid analarının
Ahı qəlbləri didir.

Əzizim yana-yana,
Ağlama yana-yana.
Balan cənnətə getdi,
Dərdinə qurban, ana.

Əzizim yaşdı bala,
Sel bəndi aşdı, bala.
Yavaş uzan, yavaş yat,
Səngərin yaşdı, bala.

Günümü etdi qara,
Vurdu qəlbimə yara.
Fələk min hiylə qurdu,
Balamı məndən ala...

Gözü çıxsın fələyin,
Soldu arzu-diləyin.
Şəhid oldun, ay bala,
Yerin cənnətdir sənin.

El dərdi çəkən oldun,
Canından keçən oldun.
Öləndə də, ay oğul,
Son sözün Vətən oldu.

Eldən ilham al, aşıq,
Sazın götür, çal, aşıq.
Üçrəngli bayrağımız
Zirvələrə yaraşıq.

Əzizim, bizə qaldı,
Lalələr düzə qaldı.
Yağı it tək qovuldu,
Qarabağ bizə qaldı.





## TAMAM YARALI

Cəfərova Tamam Aslan qızı 1976- cı ildə Tovuz rayonu Qoşa kəndində anadan olub. Dövrü mətbuatda "Bütöv Azərbaycan" qəzetində " Tovuz" qəzetinin xüsusi buraxılışı olan " Varislərdən gələn səslər" (2017), "Türk dünyası şairləri Buta-4" (2019), " Əsrlərə körpü", " Günəşin Nuru 4" və s. antologiyalarında şeirləri dərc olunub. İctimai, Türkel TV və başqa kanallarda çəkilişləri olub. Tikmələri və əl işlərindən ibarət yaradıcılıq sərgiləri keçirilib. Dünya Şair və Yazıçılar İttifaqının (UNİON OF WORD'S POETS AND WRİTERS) üzvüdür. " Bir görüş həsrəti" kitabının müəllifidir.

## Şəhid anası

Səhərlər üfüqə dayanmaz üzü.
Qüruba dikilər yol çəkər gözü.
Can balam necəsən? -danışar özü.
Odlanar sinəsi şəhid Anası.

Gözü telefonda gəlməyir zəngi.
Dayanır önündə solğundu gəlni.
Çağırır adbaad nəvələrini,
Toplayır başına şəhid Anası.

Qorxur qırmızıdan qaraya qaçır.
Gah televizorda təsəlli tapır.
Tamam, gizlicə səssiz-səmirsiz,
Məzar üstə qaçır şəhid Anası.
Məzar üstə yatır şəhid Anası...

## Addımlayaq

Aslanın erkəyi dişisi olmaz.
Vətənin oğulu qızı seçilməz.
Şəhidlər ölməz vətən bölünməz.
Yığışaq, birləşək, səfərbər olaq.
Qənirəylə cəbhədə bir addımlayaq.

Qoca qəhrəmanım, igid Tovuzum.
Əyilməz, yenilməz türkdür Tovuzum.
Halaldı qanımız, ana yurdumuz.
Dolanıb başına qurbanlıq olaq.
Qənirəylə cəbhədə bir addımlayaq.



Ağdam, Əlibəyli, Əsrik, Qaralar.
Düşmana əyilməz bizim qalalar.
Peşiman olacaq mənfur dığalar.
Çəkilməyin Tamam, sərhədlər olaq.
Qənirəylə cəbhədə bir addımlayaq.

## Zəfər çalın!

Zəfər üçün cəngi çalın,
Düşman üstə addımlayın!
Yollarınız açıq olsun
Mənfurları tapdalayın!
Uğur olsun zəfər çalın!

Güllələrniz yan keçməsin
Torpağımız qan içməsin.
Şəhidlərmiz inciməsin
Qalibyətə addımlayın!
Uğur olsun zəfər çalın!

Dalğalansın Bayrağımız,
Təzələnsin növrağımız.
Sizinlədir dualarmız
Qarabağa addımlayın!
Uğur olsun zəfər çalın!

Polad açdı zəfər yolu.
Türkün qucdu qardaş qolu.
Itiqovan Pualarıı
Işə salıb nişan alın!
Uğur olsun zəfər çalın!

## Bayatı

Əzizinəm şəhidim
Qəhrəmanım şəhidim.
Qanınızı yuyacaq
Göz yaşlarım şəhidim!

Qanınıza qurbanam
Qəbrinizə torpağam.
Kəlağayım tabuta
Örpək edib sərərəm.

Əzizinəm mərd elim
Mərd igidim mərd elim.
Düşmana qan uddurun!
Mərd igid Naiq elim.

Əzizim, mərddi Tovuz
Igid el nərdi Tovuz.
Torpağı uğurunda
Sinəsin gərdi Tovuz.

Ağdam sərhəd qapısı
Yenilməzdi ordusu.
Nakişiyə açılmaz
Tovuzumun qapısı.

Əzizinəm Qələbədi
Oyan, dur Qələbədi.
Işğal sözü qurtardı.
Şükürlər Qələbədi.

Yandırır Kəlbəcəri.
Erməni eybəcəri.
Insanlıq edir yenə
Azəri əsgərləri.



## Zəfər qoxusu

Ilham dönməz sərkərdədi
Qanlı döyüş səngərdədi.
Hünər, qüdrət əsgərdədi.
Zəfər Azərbaycanındı.
Qarabağ Azərbaycandı!

Qarabağın hər yanında
Şəhidlərin al qanında.
Zəfər bayrağı sancıldı
Zəfər Azərbaycanındı.
Qarabağ Azərbaycandı!

Yumruq kimi birləşmişik
Kafirlərə dağ çəkmişik.
Dünyaya bəyan etdik biz.
Zəfər Azərbaycanındı.
Qarabağ Azərbaycandır!

Əldə Quran ayaqyalın
Yanında Mehriban xanım.
Diz çökdü Bayraq asıldı
Ağdam Azərbaycanındı.
Qarabağ Azərbaycandı!...



## TƏRLAN MAZANOV

Mazanov Tərlan Tağı oğlu 04.04.1994-cü il Qağacılı kəndində doğulub. Orta təhsillidir.

Şeiriyyata uşaq yaşlarından başlamış olsa da, oxucularla ilk görüşüdür.



### Şəhid

Necə məmnundur o ruh, şəhadət şərabın içir,
O nə bilsin yaradan, taleyini böylə biçir...
Necə gör zirvədisə, bir o adın hökmünə bax,
Bütün aləm dayanır ki, şəhidin ruhu keçir....

Vətənim öncə sağ olsun, nə tanışdır bu səda,
Ona ki, cənnəti-rizvan axı vəd etdi xuda..
Qələbə əzmi ilə ruhu nigaran gedənim,
Rahat ol, ruhuna de, gəzməsin artıq piyada...

Bir ovuc torpağı bağrında tökən qan şəhidim,
Bir ovuc torpağı uğrunda verən can şəhidim...
Elə bir ali məqamsan ki, sənə qibtədəyik,
Minnətdar oldu sənə Azərbaycan, şəhidim...

Baxma ki, gözlərini əbədi yummuş həyata,
Heç vaxtı oğul deyib, üzülməsin qoy o ata...
Vətən uğrun da gözün qırpmadı, verdikdə canın,
Örnək olmuş bu əməliylə bütün kainata...

### Vətən xatirinə

Göz qırpmadan verərik canı, vətən xatirinə.
Tanrı versin bizə bu şanı, vətən xatirinə.

Kafirə baş əymərik, haqqı deyib, göndərərik,
Sonuncu damla belə qanı, vətən xatirinə!

Bir daha torpağıma dəymiyə düşmən nəfəsi,
Qoruyaq Azərbaycanı, vətən xatirinə!

İnanma peşman olar, içsə şəhadət şərabın,
Ölkəmin hər qızı, oğlanı, vətən xatirinə!

Vətənin zərrəsi düşməndə qalan gün, yaradan,
Yağdıra daş, tökə leysanı, vətən xatirinə.

Özünü salma qəmə get, ey şəhid oğlu şəhid,
Almısan cənnəti-rizvanı, vətən xatirinə!

Tərlan da tazə qəzəl yazdı ki, dostlar oxusun,
Üç, dörd beyt tapıb imkanı, vətən xatirinə!!!

## De, vətən sağ oısun, şəhid!!!

Axşam çağı, gün batmayıb,
Düşmən oyaqdı yatmayıb.
Heç arzu kama çatmayıb,
De, vətən sağ olsun, şəhid!!!

Haqqın versin qoy haqq sənin
Qədrin bilər torpaq sənin
İlk məzarın bayraq sənin
De, vətən sağ olsun, şəhid!!!

Gözlər gözəl çağlar səni
Gül ətirli bağlar səni
Gözlər dolar, ağlar səni
De, vətən sağ olsun, şəhid!!!

Durma, ər oğlu ər sənsən
Meydanlarda hünər sənsən
Türk oğluna zəfərsən sən
De, vətən sağ olsun, şəhid!!!



Bax, bu gəncin röyyasına
Gir şəhadət dəryasına
Qovuşdun haqq dünyasına
De, vətən sağ olsun, şəhid!!!

Gör neçə meydandan keçib
Çox güllələr yandan keçib
Bir qarış un candan keçib
De, vətən sağ olsun, şəhid!!!

Təsvir etsək bizlər səni
Vəsf etmir bu sözlər səni
Peyğəmbər də gözlər səni
De, vətən sağ olsun, şəhid!!!

## Var bizim

Yüz illərin tarixi var, torpağımda, daşımda,
Azadlıqdan xəbər verən bayrağımız var bizim.
Hər qarışın hazır olaq, yolunda can verməyə,
Barellərlə neft yetirən torpağımız var bizim...

Qara qızıl ağ qızılın şəfəq saçan işığı,
Dünya bilir gör nə boyda sərvətimiz var bizim.
Zaman-zaman mərdoğullar yolunda candan keçib,
Azərbaycan adlı gözəl dövlətimiz var bizim...

Babaların ayaq izi çoxu aşkar olmayıb,
Tarixlərdən pünhan qalan izlərimiz var bizim.
Mənim yurdum yazanların, quranların yurdudur,
Hələ çox-çox deyilməmiş sözlərimiz var bizim...

Bugün sabah döyüşə də getməyə hazır olan,
Neçə-neçə yurddaşımız, soydaşımız var bizim.
Savaş günü özgə deyil, türkə kömək türk olar,
Dünyada gör neçə milyon qardaşımız var bizim

Sahilidir neçə-neçə arzuların limanı,
Dalğasıyla yer titrədən Xəzərimiz var bizim.
Bu torpaq ki, Koroğlular, Cavanşirlər torpağı,
Sözümüzdə öz hökmümüz, kəsərimiz var bizim

Tariximiz yazılıbdır, bilinməyən illərdə,
Dastanlarda qopuzumuz, ozanımız var bizim.
Uzun illər yaşayacaq adın hələ dillərdə,
Tərlan kimi neçə-neçə yazanımız var bizim...

## Vətən

Qoynunda böyüyür ayaq izlərim,
Sinəndə keçibdi uşaqlıq çağım!
Ölüncən gəzəcək səni gözlərim,
Ey zirvəsi qarlı, ey ulu dağım!
Şəninə qoşular bütün sözlərim,
Ey Odlar diyarım, ana torpağım!
Xudadan nə gözəl inaətimsən!
Bu can sənə qurban, vətən can vətən
Sönməyən, əbədi məhəbbətimsən!
Bu can sənə qurban, vətən can vətən
Qovduq erməniní torpağımızdan,
Son qoyduq bu haqsız gedişə daha!
İnanma çıxarlar caynağımızdan,
Türküz, türk oğluyuz şükür Allaha!
Öpüb o üçrəngli bayrağımızdan,
İlhamlı günlərlə gedək sabaha!



Azərbaycan adlı məmləkətimsən!
Bu can sənə qurban, vətən can vətən
Sönməyən, əbədi məhəbbətimsən!
Bu can sənə qurban, vətən can vətən
Zülmə baş əymərsən, bilirəm səni,
Yolun həqiqətin yoludur sənin!
Tarixən oxuyub deyirəm səni,
Yaşın ululardan uludur sənin!
Zülmə qiyam edən görürəm səni,
Baban Oğuz, Haqqın quludur sənin!
Şərəfim, namusum, ülviyyətimsən!
Bu can sənə qurban, vətən can vətən
Sönməyən, əbədi məhəbbətimsən!
Bu can sənə qurban, vətən can vətən
Şükür zəfərlərlə açılır səhər,
Gör bir nələr deyir, bizə gələcək?!
Can nə dəyərlidir, çəkinəm məgər?
Qoy onun şövqüylə döyünsün ürək!
Bir gün ayrı düşsəm vətəndən əgər,
Vətənsiz yaşamaq nəyimə gərək!
Dincliyim, vüsalım, səadətimsən!
Bu can sənə qurban, vətən can vətən
Sönməyən, əbədi məhəbbətimsən!
Bu can sənə qurban, vətən can vətən!



## YADİGAR TƏVƏKGÜL

Yadigar Təvəkgül 20 oktyabr 1980-ci ildə Kürdəmir rayonunda anadan olub. "Sən mənim ömrümdə payız fəslində" və " Sən öyrətdin" kitablarının müəllifidir. "Qızıl qələm" mükafatçısıdır. Şeirləri "Günəşin Nuru 4" antologiyası da və "Xəzan" jurnalında dərc olunub.



### Qorxma oğul!

Qorxma oğul, bu torpaq əzəldən qanla yoğrulub,
Şəhidimin şahadəti azadlığı verib bizə.
Bu torpağın sinəsində ocaq yeri, yurd yerləri
Qəhramalıq salnaməsin tarix boyu deyib bizə.
Qorxma oğul! Bu vətənin hər qarışı
mən adlıyam, sən adlıdı,
Dağ qürurlu bayrağımız göylər qədər vüqarlıdı.
Ayağını ürəkli at, sən bu yurdun bir müzəffər əsgərisən,
Qarış -qarış gəz bu yurdu qoru yağı düşmənindən.
Əmanəti gözün kimi qoru oğul,
heç unutma ŞƏHİD olan əsgəri Sən,
Bayrağını hər bir zaman uca saxla –
Azadlığın nişanıdır.
Şərəf yolu, haqq yoludur, həyatının yaşamıdır.
Azad saxla qollarını, biləyini qoyma əysin yad bir nəfəs,
ə həddinə bir kimsənin qura bir də
bu torpaqda bizə qəfəs.
Bu ıstiqlal yollarında zəfər sənin özündədir,
Sən Türk oğlu, Türk torunu, təpər sənin
gözündədir.
Qartal kimi düşmən üstə sığı, gəl uç,
Çək çiyərin caynağına, qanadını tənbətən aç.
Səma mavi, qürb al rəngli, yaşıl çəmən,
göy üzündə ulduz, hilal,
Sən boz qurdun öz oğlusan, məğrur dayan,
deyim sənə halal olsun, oğul halal

## Vətən

Oğuz tonqalları qalanıb yenə
Dağların başında, buludlara tən
Bu gün sənin ən xoş günün, bayramın
Gözün aydın, gözüm aydın, ay Vətən !!
Bir də ağlamasın gözün, ay Vətən!!

Yenə oğulların verdi əl-ələ
Düşmənin dizlərin bükdürdü yerə
Qəlbə sorağın düşübdür yerə
Çəkildi başından duman, bulud çən
Gözün aydın gözüm aydın, ay Vətən

Yetdin vüsalına bitdi bu həsrət
İndi qız gəlinin yaşamır qürbət
Bitdi qara yazın, bitdi müsibət
Aya, ulduzlara oldu sevinc tən
Gözün aydın gözüm aydın, ay Vətən

Çiçək-açır hər gördüyüm çöhrələr
Daha torpağında sevinc pöhrələr
Qələbəni bizə verən töhfələr
Oğulların, şəhadətə oldu tən
Bir də ağlamasın gözün, ay Vətən!!!
Gözün aydın gözüm aydın, ay Vətən!!

## Desələr

Qəfildən desələr ŞUŞA alınıb,
Sevincdən ürəyim dayanar Vallah.
Ruhum pərvaz edər azad səmada,
Bizi bu seviclə sınaya Allah.



Çəkə çarmıxına azadlıq bizi,
Göylərdən ələnən zəfər yağışı.
Bütün ağrıların məlhəmi olar,
30 ildən sonra Vətən qaydışı.

Pir olanlar dür edərlər Vətəni,
Şəhidin çiynində Vətən ucalar.
Anaların saçlarına dən düşər,
Zəfər xəbərindən ürək güc alar.

Nə gözəlmiş azadlığın xəbəri,
Fəsillərin yaza dönüb ay Vətən
Bayrağımız zirvələrə tac olub
Dalğalanır göy üzüylə tənbətən

## Rəvanım

*Vətənin azadlığı ərazi bütövlüyü uğrunda şəhid olan*
*Köhnəbazar kənd tam orta məktəbinin məzunu*
*Rəvan Əliabbas oğlu Məlikovun əbədi xatirəsinə*

Atılıb oda-alova,
Baxmadan qara-qrova,
Yol aldın üzü Murova,
Vətənin özü olanım.
Dadına qurban Rəvanım.

Yetişdin dar gündə dada,
Vermədin torpağı yada,
Qovuşdun yeni bir ada,
Vətənin gözü olanım.
Adına qurban Rəvanım.

Şimşək kimi çağlar olan,
Neçə düşmən ağlar qoyan,
Qəlbimizi dağlar qoyan,
Vətənin üzü olanım.
Oduna qurban Rəvanım.

## Qayıt gəl

Al geyimin qara etdin ananın,
Ürəyini yara etdin ananın,
Ömrün para-para etdin ananın,
Dön, Şəhidim, gön geriyə, qayıt gəl.

Atan sağkən qəbr əzabın çəkdi,
Ürəyinə qüssə qəmi əkdi,
Göz yaşını həsrətinə bükdü,
Dön, Şəhidim, gön geriyə, qayıt gəl.

Yaman qırdın qardaşının belini,
Bu dünyadan nə tez kəsdin əlini,
Niyə pozdun ailənizin cəmini,
Dön, Şəhidim, gön geriyə, qayıt gəl.

Bacın tökdü göz yaşını yağış tək,
Üz gözündə izi qaldı naxış tək,
Gəl evmizə qərib eldən yığış tək,
Dön, Şəhidim, gön geriyə, qayıt gəl.



## MÜNDƏRİCAT

**Anar Boluslu** ........ **3**
Düşmənə göz dağıdır ........ 4
Şəhidlər ........ 4
Dilqəm ........ 5
Bayrağım ........ 6
Vaxtıdır ........ 7

**Aslan Tərtərli** ........ **8**
Bir il altı ay ........ 9
Tər-tər ........ 9
Sənin ........ 10
Biz gəlirik! ........ 11
İyirmi yanvar ........ 12

**Bəhram Şəms** ........ **14**
Qarabağ Azərbaycandır ........ 15
Məndən soruşmayın ........ 16
Ata yurdu ........ 17
Vətən dedim ........ 18
Dalğalan, uca bayrağım ........ 19

**Ceyhun Şirvani** ........ **20**
Vətən ........ 21
Azadlığın müjdəsi ........ 22
Şəhidlər ........ 23
Azad Qarabağım ........ 23
Cəsur övladların tarix yazdılar ........ 24

**Ehtibar Məxfi** ........ **25**
Dərdimiz ........ 26
Şəhidin ........ 27
Ana oğlun şəhid olsa ağlama ........ 28
Şəhid Anası ........ 29
Vətənin dilindən ........ 30

**Elnur Qərari** ............ **31**
Fatehlərin səfər günü ............ 31
Sevincdən kədərəcən ............ 32
Qartal ............ 33
Yuxum cəhənnəm yuxusu ............ 34
Atam səfərə getdi ............ 34

**Emin Bayramlı** ............ **38**
Azərbaycan Ordusu ............ 39
Qarabağ Candır ............ 39
Azəri Türk Pakistan ............ 40
Şuşa ............ 40
Laçın ............ 41
Qələbə ............ 41

**Esmira Günəş** ............ **42**
Sevdiyin cəbhəyə yola düşəndə ............ 43
Oğul əsgər gedəndə ............ 44
Zəfər nəğməsi ............ 44
İndi zəfər vaxtıdı ............ 45
Ağlama qəlbim ............ 46

**Xatirə Səfərova** ............ **47**
Şəhid anası ............ 48
Can Qarabağım ............ 48
Bayrağım ............ 49
Azərbaycanım!! ............ 49
İgidim ............ 50

**İradə Eldarlı** ............ **52**
Köksü yaralı Vətən ............ 53
Vətənim ............ 53
Qüdrətli Azərbaycanım ............ 54
İgid əsgər ............ 55
Zəfər büsatı ............ 56



**İsrayıl Novruzov** ............ **57**
Saxlama atəşi, saxlama qəti! ............ 58
Heydər Baba, gözün aydın ............ 59
Şəhid olmaq istəyirəm ............ 61

**Mənzər Əliqızı** ............ **62**
Arzu ............ 63
Bədxah qonşular ............ 64
Əsir dağlarımıza ............ 65
Qisas ............ 66
Ədalət ............ 67

**Müşfiq Əliyev** ............ **69**
Şəhidlər ............ 70
Ey türk oğlu ............ 70
Məndən sor, necə ağlayır ............ 71
Ay ocağı sönən yurdum ............ 72
Vətən ............ 72

**Nahidə Elman** ............ **73**
Şuşa ............ 74
Oldum ............ 74
Şəhid Təbriz Həsənovun anasının dilindən ............ 75
Gözün aydın Qarabağım ............ 76
General mayor Polad Həmişovun əziz xatirəsinə ............ 77

**Nailə Məmmədli** ............ **79**
Qarabağ biz gəlirik ............ 79
Polad Həşimovun xatirəsinə ............ 81
Qarabağ bizimdir ............ 82
"Ya Qarabağ, ya ölüm" ............ 83
"Başın sağ olsun Vətən" ............ 84

**Raya Haqverdiyeva** ............ **85**
Qarabağ Azərbaycandır! ............ 86
Tarix yazan sərkərdə ............ 87
Azərbaycan əsgəri ............ 88

Şəhid məzarı ... 90
Xocalı fəryadı ... 90

**Rəna Mərzili ... 93**
Unudulmaz heç zaman ... 94
Qərib ... 95
Qarabağ Azərbaycandır! ... 95
Layla şəhidim layla ... 96
Türküm mənim ... 97

**Solmaz Elqızı ... 98**
Xalqın sevimlisi ... 99
Təki Vətən sağ, olsun! ... 101
Allahım sən bizi çəkmə sınağa ... 102
Şəhid balası ... 103
İlisu ... 103

**Şəfəq Əziz ... 105**
Harada qaldı? ... 106
Qarabağ Azərbaycandır! ... 107
Azərbaycanım! ... 108
Gözünüz aydın ... 108
Qaç erməni ... 109

**Şəlalə Ağayeva ... 111**
Əsgərim ... 112
Cəbrayılım ... 112
Quşa dönərsəm ... 113
Gətir ... 114
Şəhid ... 114

**Şəlalə Şəfəq ... 115**
Azərbaycan əsgəri ... 116
Qürurumsan, Şəhidim ... 116
Şəhidim ... 117
Cənnət, şəhidin gəlir ... 118
Bayatılar ... 119





**Tamam Yaralı ... 121**
Şəhid anası ... 122
Addımlayaq ... 122
Zəfər çalın! ... 123
Bayatı ... 124
Zəfər qoxusu ... 125

**Tərlan Mazanov ... 126**
Şəhid ... 127
Vətən xatirinə ... 127
De, vətən sağ oısun, şəhid!!! ... 128
Var bizim ... 129
Vətən ... 130

**Yadigar Təvəkgül ... 132**
Qorxma oğul! ... 133
Vətən ... 134
Desələr ... 134
Rəvanım ... 135
Qayıt gəl ... 136



Esmira Günəş 15 iyul 1989-cu ildə Gəncə şəhərində anadan olub.

"Azərbaycan qızıyam" (2018), "Sevgi sarayı" (2018), "Sarı köynək" (2018-yarımmüəllif), "Qadın güldür, bacarsan güldür"(2019) kitablarının müəllifidir. "Günəşin Nuru" 1-2-3-4 və "Sevgi damlası" antologiya layihələrinin təsisçisi, "Unutmadıq şəhidim!" kitabının tərtibçisidir.

Şeirləri müxtəlif antologiyalarda, almanaxlarda dərc olunub.



Yadigar Təvəkgül 20 oktyabr 1980-ci ildə Kürdəmir rayonunda anadan olub. "Sən mənim ömrümdə payız fəslində" və "Sən öyrətdin" kitablarının müəllifidir. "Qızıl qələm" mükafatçısıdır. Şeirləri "Günəşin Nuru 4" antologiyası da və "Xəzan" jurnalında dərc olunub.